QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 163 (6363) 10 sentyabr 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## "Siyasi partiyalar: Zəfər, yeni reallıq və dialoq" mövzusunda görüş keçirilib



Sentyabrın 9-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi ölkədə fəaliyyət göstərən 45 siyasi partiyanın rəhbərləri ilə...

Bax 3

## AZRBAYCAN-TÜRKİYƏ:

### Hər sahədə iki dövlət, bir millət olduğunu nümayiş etdirir!

Bax 2



Azəbaycanda keçirilən hərbi təlimlərdən Ermənistan niyə təşvişə düşür?

## İranın "Babak copper" şirkəti Ermənistanda nə axtarır?



Ermənistanın işğalçılıq siyasətinin davam etməsinə stimul verən amillər artıq gizlilikdən çıxıb. Bu ölkə bütün qonşularına qarşı ərazi iddiasındadır. Uydurma tarix, qondarma...

Bax 6

## USAİD-in ermənipərəst rəhbəri yenə Azərbaycanı ittiham etdi




USAİD-in ermənipərəst rəhbəri, ermənilərin "qondarma soyqırımı günü"nü özünün doğum günü elan edən Samanta Pauer...

Bax 7

## Perulu jurnalist işğaldan azad olunmuş ərazilərimiz barədə yazır



"Peru Jurnalistlər Federasiyası"nın vitse-prezidenti, tanınmış jurnalist, siyasi şərhçi, Azərbaycanda yaxınlarda səfərdə olmuş Rikardo Sançes işğaldan azad olunmuş ərazilərdə şahidi olduğu erməni vandalizmini və hərbi cinayətlərini ölkəsinin mətbuatında işıqlandırıb. Perulu jurnalist...

Bax 4

## Maaş artımı gözləyənlərə ŞAD XƏBƏR - Detallar açıqlandı



## Ermənilər kommunikasiyaların açılmasını niyə istəmir? - ŞOK SƏBƏB



"Ermənistan hakimiyyəti kommunikasiyaların açılması və ucuz türk...

Bax 14

## İctimai və dövlət maraqlarının qorunması əsas vəzifələrdəndir

Ölkəmizdə ictimai və dövlət maraqlarının müdafiəsi, məhz həyata keçirilən uğurlu siyasət...



Bax 10

## Qarabağda yeni eskalasiya gözlənilirmi?

44 günlük İkinci Qarabağ müharibəsindən sonra Ermənistanın Azərbaycanın zəfər yürüşünün qarşısında tab gətirə bilməyərək...



Bax 5

## "Saman altından su yeridən" ermənilər və ermənipərəstlər



Vaxtilə sonuncu sovet fironu Mixail Qorbaçovun hakimiyyətə gəlişi ilə...

Bax 11




## Meyvə bazarında son vəziyyət - vətəndaş qiymətlərdən razıdır?

## Qarabağda blindajlar hansı məqsədlə qazılır?



Bax 14

## "Limanın istifadəyə verilməsi erməniləri təşvişə salır"



Bax 13

## Havada min cür zəhər var



Bax 16



# AZRBAYCAN-TÜRKİYƏ:

## Hər sahədə iki dövlət, bir millət olduğunu nümayiş etdirir!

### Azəbaycanda keçirilən hərbi təlimlərdən Ermənistan niyə təşvişə düşür?





**Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, hər iki qardaş ölkənin hərbçiləri birgə təlim-məşqlərə başlayıb. Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən məşqlərin əsas məqsədi döyüş əməliyyatlarının aparılması zamanı iki ölkə ordularının bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə vərdişlərinin inkişaf etdirilməsidir. Məşqlərdə həmçinin sualtı hücum və sualtı müdafiə əməliyyatlarının aparılması tapşırıqları da icra ediləcək. İkitərəfli birgə məşqlər sentyabrın 12-dək davam edəcək.**

Qeyd edək ki, Azərbaycan ordusunun 44 günlük müharibədən sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, martın 15-dən Azərbaycan Ordusunda qoşun (qüvvə) növlərinin cəlb edilməsi ilə əməliyyat-taktiki təlimləri başlayıb keçirdiyi ilk irimiqyaslı hərbi təlimlər keçirib. Bu təlimlərin keçirilməsi Azərbaycan ordusunun daha da gücləndirilməsi, müasir silahlarla təchizatının davam etdirilməsi barədə Ali Baş komandanın müharibədən sonra elan etdiyi hərbi-siyasi vəzifəyə uyğundur.

### Bəs təlimlərdə qarşıya qoyulan bu döyüş vəzifələri nə deməkdir, nədən xəbər verir?

Məsələ burasındadır ki, ordumuzun müharibədən əvvəl vaxtaşırı olaraq keçirdiyi irimiqyaslı hərbi təlimlərdə qarşıya qoyulan döyüş tapşırıqları və ssenari hücum əməliyyatları üzərində qurulmuşdu, torpaqların işğaldan azad edilməsi vəzifəsinin yerinə yetirilməsinə hesablanmışdı. İndi isə ssenari dəyişib-Azərbaycan ordusunun qarşısında dayanan başlıca vəzifə bölgədə müharibənin nəticələrindən sonra yaranmış status-kvonu qoruyub saxlamaqdan ibarətdir. Çünki Ermənistan işğalçı qüvvələri torpaqlarımızdan qovulub və düşmən ölkə kapitulyasiya ilə razılaşıb. Ordu ölkənin qarşısında onillərdir dayanan bir nömrəli vəzifəni-torpaqların işğaldan azad edilməsi vəzifəsini həll edib. Lakin Azərbaycan ərazilərinin hazırda Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasına daxil olan ərazilərində-Dağlıq Qarabağın ermənilər yaşayan hissəsində özünü "dqr müdafiə ordusu" adlandıran və 44 günlük müharibədə darmadağın edilmiş qanunsuz silahlı birləşmələrin qalıqları mövcudluğunu saxlamaqdadır. Qondarma rejimin nümayəndələri bu silahlı birləşmələrin əsasında hansısa "peşəkar ordu" qurmaq barədə planlardan danışırlar. Eləcə də Ermənistanda və Dağlıq Qarabağda revanşist qüvvələrin olduğu da bəllidir, doğrudur, müharibədə aldığı zərbələr nəticəsində Ermənistanın nəinki yaxın, eləcə də orta və uzunmüddətli perspektivdə revanşa cəhd etmək potensialı mövcud deyil. Amma həmin qanunsuz silahlı birləşmələrin nəzəri olaraq hansısa diversiya-terror əməllərinə cəhd etməsi istisna edilməməlidir. Eləcə də həmin qanunsuz birləşmələrin dinc yolla tərksilah edilməsi baş verməsə, onların güc yolu ilə tərksilahı vəzifəsi qarşıya çıxa bilər.

Məhz bu kimi ehtimalları nəzərə alaraq Azərbaycan ordusu elə güc sahibinə çevriləcək ki, düşmən indi və gələcəkdə hər hansı revanş cəhdinə, terror və ya diversiya əməllərinə əl atmağa cəsarət etməsin. Deməli, indiki təlimlərin ssenarisi də təsadüfi seçilməyib və Azərbaycan ordusu məhz postmüharibə dövründə yarana biləcək hərbi təhdidlərə indidən hazırlaşmağa başlayıb. Bu da "sülh istəyirsənsə müharibəyə həmişə hazır ol" fəlsəfəsindən irəli gəlir. Azərbaycan ordusu müharibədən əvvəl torpaqları düşməndən azad edəcək güc amili olaraq mövcud idisə indi bölgədə sülhə təminat yaradan qüvvədir. Bu baxımdan hazırda başı daxili didişmələrə qarışan Ermənistanın hərbi-siyasi dairələri üçün Azərbaycan Müdafiə Nazirliyinin təlimlər barədə yaydığı məlumatı oxumaq və təlimlərin gedişini izləmək, bunlardan dərs çıxarmaq pis olmazdı.

### Cəlil Xəlilov: "Hərbi təlimlər Azərbaycan Ordusunun peşəkarlığının daha da artırılması baxımından mühüm əhəmiyyətə malikdir"

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov ordumuzda keçirilən bu təlimlərin bir çox aspektdən mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. O, belə hərbi təlimlərin Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, onun peşəkarlığının artırılması baxımından önəminə toxunub: "Belə hərbi təlimlərin Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, onun peşəkarlığının artırılması baxımından önəmlidir".

Polkovnik qeyd edib ki, 44 günlük Vətən müharibəsinə qədərki dövrdə də Azərbaycan Ordusu çoxlu sayda irimiqyaslı təlimlər keçirib. Bu təlimlərdə məqsəd müxtəlif qoşun növlərinin fəaliyyətinin döyüş şəraitində təşkili, şəxsi heyətin çətin və mürəkkəb relyefdə hərəkətinin təmini, şərti hədəflərin dəqiqliklə məhv edilməsi, tank və artilleriya bölmələrinin hazırlıq səviyyəsinin yüksəldilməsidir. Bütün bunların bəhrəsini Vətən müharibəsində əməli şəkildə gördük. Ordumuz Ali Baş Komandanımızın rəhbərliyi ilə qısa zamanda işğal altındakı torpaqları azad edərək düşməni darmadağına məruz qoyub.

Cəlil Xəlilov bildirib ki, keçiriləcək təlimlər ordumuzun Vətən müharibəsindəki döyüş hazırlığının qorunub saxlanılmasına və möhkəmlənməsinə hesablanıb: "Bu təlimlərdə də piyadalarla yanaşı tankların, ağır artilleriyanın birgə iştirakı ilə əməliyyatın təşkili, müxtəlif qoşun növlərinin birgə fəaliyyətinin operativ və səmərəli şəkildə təmini diqqət mərkəzində saxlanılan əsas məsələlər olacaq. Odur ki, bu təlimləri və onun ordumuz üçün əhəmiyyətini yüksək dəyərləndirirəm".

### Rusiya XİN-in sözçüsü: "Azərbaycanın hərbi təlimləri heç bir təhlükə yaratmır"

"Azərbaycanın hərbi təlimləri planlaşdırılmış xarakterlidir, regionda sabitlik və təhlükəsizlik üçün heç bir risk yaratmır". Bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova keçirdiyi həftəlik brifinqdə bildirib.

Bir sözlə, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Şanlı Azərbaycan ordusu Azərbaycan tarixini yenidən yazır. Bu, qələbələr tarixidir, bu, işğal altında olan torpaqlarımızın azad olunduğu tarixdir, bu, bütöv Azərbaycanın bərpa olunması tarixidir, Birliyimizdir, Bütövlüyümüzdür.

Və bir vaxtlar Ermənistan rəsmilərinin ağızdolusu danışdığı hərbi texnikalar Vətən müharibəsindən sonra onların məğlubiyyət simvoluna çevrildi. Bu gün işğaldan azad edilmiş ərazilərdə ermənilərdən "xatirə" qalan yüzlərlə dağılmış, külə dönmüş döyüş texnikalarını, silah-sursatları görmək olar. Bütün bunlar düşmən ordusunun hansı vəziyyətdə olduğunu aşkar şəkildə göstərir. İndi sual yaranır, ordusunun yarıdan çoxunu itirən Ermənistan nə ilə revanş edəcək? Erməniləri havadarları silahlandırsa belə, bu, heç nəyi dəyişməyəcək. Müzəffər Azərbaycan Ordusu 44 gündə olduğu kimi, yenə düşmənə döyüş meydanında layiqli dərs keçməyə tam hazırdır. Bu isə Ermənistanın bir dövlət kimi məhvinə səbəb ola bilər. Yəqin ki, revanş eşqi ilə yaşayanlar aqibətlərinin necə olacağını düşünməmiş deyillər.

Bir sözlə, hərbi təlimləri keçirməklə cənab Ali Baş Komandan bir neçə istiqamətlərə, dövlətlərə mesaj göndərir. İlk olaraq bununla Ermənistandakı revanşist qüvvəllərə bildirir ki, ordumuz döyüş qabiliyyətini artırır və ağıllı olsunlar. Əks halda dəmir yumruğumuzu əzəli torpaqlarımızda hiss edəcəklər.

**RƏFİQƏ HÜSEYNOVA**





# “Siyasi partiyalar: Zəfər, yeni reallıq və dialoq” mövzusunda görüş keçirilib



**Sentyabrın 9-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi ölkədə fəaliyyət göstərən 45 siyasi partiyanın rəhbərləri ilə “Siyasi partiyalar: Zəfər, yeni reallıq və dialoq” mövzusunda görüş keçirib.**

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev görüşdə iştirak edən siyasi partiya rəhbərlərini Prezident İlham Əliyevin adından salamlayıb, onlara ölkədə milli həmrəylik, siyasi dialoq mühitinin təşviqinə xidmət edən müxtəlif səpkili layihələrdə fəal iştirak etdiklərinə görə təşəkkürünü bildirib.

Ədalət Vəliyev qeyd edib ki, bu gün Azərbaycan çoxəsrlik tarixinin ən şərəfli dövrünü yaşayır, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib dövlət və qalib xalq olmağımızla Azərbaycan dövlətçiliyi tarixində mahiyyət etibarilə tamamilə yeni inkişaf mərhələsi başlayıb. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın müddət ərzində davam edən təcavüz və işğal siyasətinə son qoyulub.

Ölkədə cərəyan edən siyasi proseslər barədə danışan Ədalət Vəliyev Prezident İlham Əliyevin sistemli və çoxşaxəli inzibati-siyasi islahatlarının nəticəsində sağlam iqtidar-müxalifət dialoqunun, yeni siyasi konfiqurasiyanın qurulduğunu, siyasi partiyalarla işin yenidən təşkil edildiyini diqqətə çatdırıb. O, dövlətimizin başçısının tapşırığı əsasında siyasi partiya rəhbərləri ilə çoxsaylı görüşlər keçirildiyini və hər bir görüşün nəticələrinin təhlil olunaraq irəli sürülən təkliflərin öyrənildiyini, müvafiq addımların atıldığını deyib. Həmçinin bildirilib ki, “Siyasi partiyalar haqqında” yeni qanunun layihəsinə dair siyasi partiyalar tərəfindən təqdim olunmuş təkliflər müzakirə edilir.

İqtidar-müxalifət dialoqunun əhəmiyyətini vurğulayan şöbə müdiri qərargahı olmayan 22 siyasi partiya üçün ofislər ayrılması, vaxtı ötürülmüş qurultaylarının keçirilməsi üçün bir sıra siyasi partiyaların yerlə təmin olunması üçün tədbirlər görülməsi və 25 siyasi partiyanın qurultaylarının keçirilərək nəticələrinin dövlət qeydiyyatına alınması, habelə uzun fasilədən sonra 7 yeni siyasi partiyanın dövlət qeydiyyatına alınması barədə məlumat verib. Həmçinin qeyd olunub ki, iqtidar-müxalifət dialoqu nəticəsində cəmiyyətdə yeni yanaşma müşahidə olunmaqdadır və siyasi partiyaların respublikanın ictimai-siyasi həyatında daha yaxından iştirakının təmin edilməsi məqsədilə siyasi partiya liderləri müxtəlif mətbuat orqanlarında və televiziya kanallarında çıxış etmək üçün dəvət olunurlar.

Ədalət Vəliyev siyasi partiyaların mütləq əksəriyyətinin xarici təhdidlərə qarşı birlik nümayiş etdirdiyini, 8 birgə bəyanat və 2 birgə müraciət imzalandığını xatırladaraq Vətən müharibəsi zamanı bu milli həmrəyliyin bütün dünyaya Azərbaycan xalqının ümummilli məsələlərdə hər zaman birləşməyə hazır olduğunu göstərdiyini xüsusi qeyd edib.

Şöbə müdiri ölkədə koronavirus pandemiyasına qarşı aparılan məqsədyönlü mübarizə tədbirlərindən söz açaraq, siyasi partiya rəhbərlərinin və nümayəndələrinin vaksinasiya olunduqlarını, habelə onların koronavirusdan yeganə xilas yolu kimi əhalini vaksinasiyada fəal iştirak etməyə çağırdıqlarını da bildirib.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkədə milli həmrəylik və sağlam siyasi münasibətlərə köklənmiş siyasi dialoqun qurulması istiqamətində əldə olunmuş uğurların bundan sonra da davam etdiriləcəyini qeyd edən Ədalət Vəliyev diqqətə çatdırıb ki, Azərbaycanda çoxpartiyalılığın inkişafına yönəlmiş addımlar ali siyasi iradənin təzahürüdür və iqtidar hər hansı amilə görə ayrı-seçkilik qoymadan bütün siyasi partiyalar ilə dialoqa və əməkdaşlığa hazır olduğunu bəyan edib.

Ədalət Vəliyev 2021-ci il martın 17-də siyasi partiya rəhbərlərinin Ağdama təşkil olunmuş və böyük rəmzi məna daşıyan, milli həmrəyliyi nümayiş etdirən birgə səfəri haqqında da danışaraq, səfərdə iştirak etməyən bəzi şəxslər tərəfindən səfərlə bağlı edilmiş siyasi spekulyasiyaların təəssüf doğurduğunu söyləyib.

Çıxışının sonunda Ədalət Vəliyev postmüharibə dövründə müxtəlif informasiya təxribatlarına qarşı hazır olmağın vacibliyini tədbir iştirakçılarının nəzərinə çatdırıb, hər kəsi düşmənə qarşı mübarizədə daha da sərt mövqe tutmağa və milli məsələlər ətrafında hər zaman birlik nümayiş etdirməyə çağırıb.

Sonra Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu, Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağazadə, Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər, REAL Partiyasının sədri İlqar Məmmədov, Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova, Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli, Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov, Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev, Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu və Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxış ediblər.

Çıxışlarda ölkədə davamlı sabitliyin qorunması və dövlətin inkişafı naminə bütün imkanların səfərbər olunmasında siyasi dialoq mühitinin əhəmiyyəti vurğulanıb, bu istiqamətdə sağlam əməkdaşlığın davam etdirilməsinə hazırlıq ifadə olunub. Qeyd edilib ki, qısa müddət ərzində əldə olunmuş uğurlu əməkdaşlıq nümunələrinin sayı artırılmalı, dayanaqlı dialoq ənənələri daha da dərinləşdirilməli, bütün səylər ölkənin inkişafı və xalqın rifahına yönəldilməlidir.

# YAP qısa zaman çərçivəsində ümumxalq rəğbətini qazanıb

## YAP Siyəzən rayon təşkilatının VIII hesabat konfransı keçirilib

**Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası Siyəzən rayon təşkilatının videoformatda VIII hesabat konfransı keçirilib. Əvvəlcə Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**





Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Siyəzən rayon təşkilatının sədri Etibar Heydərovun hesabat məruzəsi dinlənilib. Bildirib ki, dövlət müstəqilliyimizi möhkəmləndirmək, ərazi bütövlüyümüzü bərpa etmək, Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələri sırasına çıxarmağı qarşısına məqsəd qoyan Yeni Azərbaycan Partiyası ötən 29 ildə böyük nailiyyətlər qazanıb. YAP qısa zaman çərçivəsində ümumxalq rəğbətini qazanıb.

E.Heydərov qeyd edib ki, hazırda YAP Siyəzən rayon təşkilatının 41 ərazi ilk partiya təşkilatında 3670 nəfər üzv birləşib. Onlardan 1633 nəfəri qadınlar, 562 nəfəri isə gənclərdir. Hesabat dövrü ərzində rayon təşkilatına 227 nəfər üzv qəbul edilib ki, onların da əksəriyyətini gənclər təşkil edir.



Sonra YAP Siyəzən rayon təşkilatının Nəzarət Təftiş Qrupunun sədri Rəsul Əlibəyovun hesabat məruzəsi dinlənilib.



Müzakirələr zamanı Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov, YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, rayon təşkilatının Şura üzvü, Gilgilçay qəsəbə məktəbinin direktoru Samir Baxşıyev, təşkilatın Qadınlar Şurasının sədri, Siyəzən rayon Mərkəzi Kitabxanasının şöbə müdiri Ramilə Seyidova, rayon təşkilatı Gənclər Birliyinin sədri Elvin Kərimov hesabat dövrü ərzində görülən işlərdən bəhs ediblər.



Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, bütün dünyanın diqqəti Azərbaycandadır: “Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Ordumuzun şücaəti sayəsində 30 ilə yaxın müddət ərzində işğal altında olan torpaqlarımız işğaldan azad olundu, Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Regionda və dünyada yeni reallıqlar yaradan tarixi Zəfərimiz ölkə daxilində də yeni hədəflərə yol açdı. Ali Baş Komandan İlham Əliyev bəyan etdi ki, yeni hədəflərimiz qələbəmizi daha da möhkəmləndirmək, Azərbaycanın təhlükəsizliyini təmin etmək, işğaldan azad olunmuş torpaqları yenidən qurmaq, bərpa etmək və Ermənistanın revanşist qüvvələrinin baş qaldırmasına imkan verməməkdir. Azərbaycan bu hədəflərə də uğurla çatacaq”.







Ə.Tağıyev Yeni Azərbaycan Partiyasının qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olunmasında öz payı olduğunu önə çəkərək, YAP Siyəzən rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb. Konfransda YAP Siyəzən rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.



# “Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi naminə ardıcıl siyasət həyata keçirilir”

*YAP Laçın rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib*

**Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.**

Gündəlik təsdiq edildikdən sonra YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, rayon təşkilatının XI hesabat konfransı əvvəlki konfranslardan fərqli əhval-ruhiyyədə keçirilir. Belə ki, 28 illik həsrətdən sonra Ali Baş Komandanımızın, Prezident İlham Əliyevin rəhbərliyi ilə


















şanlı ordumuz işğal altında olan torpaqlarımızı işğaldan azad edib. Ordumuzun gücü qarşısında aciz qalan işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. 10 noyabr 2020-ci ildə imzalanmış Birgə Bəyanata əsasən Laçın rayonu bir güllə atılmadan işğaldan azad edildi. Artıq laçınlılar məcburi köçkün deyillər, onlar qısa zamanda doğma yurdlarına qayıdacaqları günü gözləyirlər.

İ.İlyasov qeyd edib ki, hazırda rayon təşkilatının 32 ərazi ilk partiya təşkilatında 3612 nəfər üzv birləşir ki, onlardan da 1611 nəfəri qadınlar, 732 nəfəri isə gənclərdir. Sonuncu konfransdan keçən müddət ərzində 333 nəfər rayon sakini partiya sıralarına qəbul edilib ki, onlardan 266 nəfəri qadınlar, 140 nəfəri isə gənclərdir.

Sonra YAP Laçın rayon təşkilatı Nəzarət-Təftiş Qrupunun sədri Novruz Nəcəfovun məruzəsi dinlənilib.

Müzakirələr zamanı Milli Məclisin deputatı Mahir Abbaszadə, YAP Laçın rayon təşkilatının Şura üzvü Əmirxan Zeynalov, rayon təşkilatının fəal üzvü Aytac Abbasova və rayon təşkilatı Gənclər Birliyinin sədri Orxan Məmişzadə çıxış edərək rayon təşkilatının hesabat dövründəki fəaliyyətinə münasibət bildiriblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev əvvəlcə 44 günlük Vətən müharibəsi nəticəsində digər rayonlarımız kimi Laçının da işğaldan azad olunması münasibətilə təbriklərini çatdırıb və qeyd edib ki, hazırda azad olunmuş ərazilərimizə insanların qayıdışı üçün dövlət tərəfindən sistemli tədbirlər həyata keçirilir. O, belə bir inam ifadə edib ki, YAP Laçın rayon təşkilatının da doğma yurda qayıdışdan sonra fəaliyyətində yeni mərhələ başlayacaq.

“Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqilliyinin dönməzliyinin təmin edilməsi, ölkənin tərəqqisi, iqtisadiyyatın yüksəlişi, xalqın rifahının yaxşılaşması, 44 günlük Vətən müharibəsində əldə olunan parlaq qələbə nəticəsində ərazi bütövlüyü təmin olunan Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi naminə ardıcıl siyasət həyata keçirilir. Bu proseslərdə YAP daim ön sırada olub”, - deyən Ə.Tağıyevin sözlərinə görə, YAP üzvləri ölkəmizin daha da güclənməsi naminə partiyamızın Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin ən fəal dəstəkçiləri olmaqla yanaşı, bu siyasətin uğurlarını da xalq arasında geniş təbliğ etməkdədirlər.

Ə.Tağıyev həmçinin qarşıda duran vəzifələrdən danışıb, YAP Laçın rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb. Qeyd edək ki, konfransda YAP Laçın rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Perulu jurnalist işğaldan azad olunmuş ərazilərimiz barədə yazır


Federación de Periodistas del Perú
Fundada el 18 de julio de 1950
INICIO FPP POLÍTICA REGIONALES ACTUALIDAD ECONOMÍA INTERNACIONAL DEPORTES
COLUMNA DE OPINIÓN ENTRETENIMIENTO ARTE Y CULTURA CIENCIA OTROS CONTÁCTENOS
Columna de opinión Destacados Internacional Portada
El horror de la guerra armenio-azerí
6 Septiembre, 2021
Compartir
Restos de edificaciones en Ganjá, una ciudad a 100 kms. del conflicto, atacada por misiles balísticos
Entradas recientes
El horror de la guerra armenio-azerí
Exfutbolista e hijo de un dictador libio es excarcelado
Afganistán: Valle del Panjshir, último bastión de la resistencia, es conquistado por los talibanes
Afganistán: Universidades en Kabul están vacías en el primer día de la prohibición de las clases mixtas
GREMIOS PERIODISTICOS SE REUNIERON CON MINISTRO DEL INTERIOR POR MALTRATOS A PERIODISTAS DURANTE EVENTOS OFICIALES
Membresía de prensa
FPP
PERIODISTA, AFÍLIATE O RENUEVA

**“Peru Jurnalistlər Federasiyası”nın vitse-prezidenti, tanınmış jurnalist, siyasi şərhçi, Azərbaycanda yaxınlarda səfərdə olmuş Rikardo Sançes işğaldan azad olunmuş ərazilərdə şahidi olduğu erməni vandalizmini və hərbi cinayətlərini ölkəsinin mətbuatında işıqlandırıb. Perulu jurnalist Peru Jurnalistlər Federasiyasının internet səhifəsində (fpp.org.pe), həmçinin Perunun nüfuzlu internet xəbər portalı “Expreso”da “Ermənistan-Azərbaycan münaqişəsinin dəhşətləri” sərlövhəli məqalə dərc edib.**

Müəllif yazıda uzun illər Ermənistanın işğalı altında olmuş və Azərbaycan Ordusu tərəfindən azad edilmiş Füzuli, Cəbrayıl, Ağdam və Şuşa şəhərlərinə perulu jurnalistlərin ilk dəfə səfər etdiklərini qeyd edir.

R.Sançes Cəbrayıl, Füzuli, Gəncə, Ağdam və Şuşaya səfər edərək 30 ilə yaxın işğalda saxlanılmış Azərbaycanın tarixi torpaqlarının Ermənistan tərəfindən xarabalığa çevrilməsinin, kütləvi dağıntıların və talanların şahidi olduğunu, xüsusilə Cəbrayıl və Ağdam şəhərlərinin erməni vandalizminə məruz qaldığını, oradakı yaşayış infrastrukturunun, tarixi və mədəniyyət abidələrinin tamamilə məhv edildiyini qeyd edir. Müəllif Cəbrayıl şəhərində olarkən hər yerdə yalnız dağılmış evlər gördüklərini və qəbiristanlıqların talan edildiyini qeyd edərək, bu mənzərələrdən dəhşətə gəldiyini vurğulayır. O, bir vaxtlar Azərbaycanın ən gözəl şəhərlərindən biri olan, hazırda isə “Qafqazın Xirosiması” adlandırılan Ağdam şəhərində şahid olduğu erməni vandalizmindən bəhs edərək, işğal olunmuş ərazilərdə qədim məscidlərin, sarayların, tarixi memarlıq abidələrinin, mədəniyyət incilərinin və dini ibadət yerlərinin ermənilər tərəfindən dağıdılaraq yağmalanmaya məruz qaldığını diqqətə çatdırır.


primer ministro de Armenia, Nikol Pashinián, y el presidente de Rusia, Vladimir Putin.
Jeroglíficos semidestruidos que datan de 15.000 años
Como paréntesis mencionaremos que nos entrevistamos con una familia de desplazados azeríes de Zanguilán -que se encuentra en Bakú- que con emoción nos expresaba que está dispuesta a regresar a su tierra inmediatamente. Pero debido a miles de minas que tendrán que ser erradicadas y al periodo de reconstrucción -que empezó ya el Gobierno, con un presupuesto de 2 000 000 000 de dólares solo en el 2021- pasarán aún, por lo menos, entre cinco y diez años.


En todo momento nos aconsejaron que nos alejemos del traductor por las minas personales y antitanque que habían sido sembradas por doquier por los armenios.
Tanque armenio destruido en Fizuli
Entramos a localidades que habían sido campos de batalla -incluso se veían tanques abandonados- y en Fizuli nos esperaba un representante de la Agencia Nacional de Acción contra las Minas (Anama) -que opera con el apoyo de la Programa de las Naciones Unidas para el Desarrollo (PNUD)- que nos explicó el proceso de remoción de minas y sus emplazamientos.
"Actualmente son tres métodos con que se realiza el proceso de desminado: la búsqueda con los perros adiestrados, la limpieza de la mina con la mano y con carros que tienen tenedores enfrente. Numerosas instituciones internacionales han ofrecido apoyo para la limpieza de minas, pero solo Turquía ha concretado la ayuda", afirmó el funcionario de Anama.


Continuamos el viaje y vislumbramos las ruinas de una muralla conmemorativa por el triunfo de las quince repúblicas soviéticas en la Segunda Guerra Mundial.
Arribamos a Shushá, una ciudad emblemática para los azeríes, porque decidió el triunfo militar sobre los armenios. Está ubicada a 1500 metros sobre el nivel del mar, en una meseta, en donde para llegar había un solo camino vigilado por los armenios fuertemente armados. Parecía inexpugnable. Pero una noche las fuerzas de élite azeríes escalaron por detrás y atacaron a los sorprendidos armenios, que lucharon cuerpo a cuerpo y fueron vencidos. No tuvieron tiempo de arrasar la ciudad en su retirada.

Müəllif Gəncəyə səfərindən bəhs edərək 44 günlük müharibə zamanı ermənilər tərəfindən insanlığa qarşı törədilmiş cinayətlərin şahidi olduğunu yazır. O, hərbi əməliyyatlar zamanı Ermənistan tərəfindən döyüş əməliyyatları zonasından xeyli uzaqda yerləşən şəhərin ballistik raketlərlə atəşə tutulması nəticəsində 26 mülki şəxsin, o cümlədən qadın və uşaqların həlak olduğunu və yüzlərlə insanın yaralandığını oxucuların diqqətinə çatdırır. Qeyd olunur ki, ermənilər bu kimi hərəkətləri ilə insanlar arasında qorxu yaymaq, mənəvi ruhu pozmaq və Azərbaycan xalqının əzmini sındırmaq istəsələr də, buna nail ola bilməyiblər, tam əks reaksiya ilə üzləşiblər.

Şuşa şəhərinin Azərbaycan üçün geosiyasi, tarixi, mədəni və hərbi-strateji vacibliyini açıqlayan jurnalist, olduqca mürəkkəb xüsusi əməliyyat nəticəsində şəhərin işğaldan azad edilməsinin Azərbaycan üçün müstəsna simvolik əhəmiyyətə malik olduğunu qeyd edir. Jurnalist 30 il əvvəl öz yurdlarından qovulan vətəndaşlarımızın geri qayıtmasını təmin etmək üçün yerlə yeksan edilmiş bu ərazilərdə Azərbaycan Prezidentinin rəhbərliyi ilə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə məlumat verir.

O, təəssüflə yazır ki, Ermənistan silahlı qüvvələrinin uzun illər işğal dövründə bu ərazilərdə yüz minlərlə mina yerləşdirməsi faktı bərpa işlərini mürəkkəbləşdirir. Ötən il noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin imzaladığı üçtərəfli bəyanata baxmayaraq, Ermənistanın beynəlxalq humanitar hüquqazidd olaraq minalanmış sahələrin xəritələrini verməkdən imtina etdiyini qeyd edən jurnalist, Azərbaycan hökumətinin bütün səylərinə baxmayaraq, bu ərazilərin minalardan təmizlənməsi prosesinin illərlə çəkə biləcəyini bildirir.

Müəllif yazısında səfər zamanı azərbaycanlı qaçqınlarla görüşdüyünü, onların erməni təcavüzü nəticəsində doğma evlərini tərk etmək məcburiyyətində qaldıqlarını, çəkdikləri əzab və ağrılardan bəhs etdiklərini, lakin buna baxmayaraq tezliklə öz doğma yurdlarına qayıdacaqları anı səbirsizliklə gözlədiklərini qeyd edir.

https://fpp.org.pe/el-horror-de-la-guerra-armenio-azeri/

https://www.expreso.com.pe/diplomacia/el-horror-de-la-guerra-armenio-azeri/

# Qarabağda yeni eskalasiya gözlənilirmi?



**44 günlük İkinci Qarabağ müharibəsindən sonra Ermənistanın Azərbaycanın zəfər yürüşünün qarşısında tab gətirə bilməyərək diz çökməsi və nəticədə Rusiyanın vasitəçiliyi ilə Azərbaycan-Rusiya-Ermənistan arasında üçtərəfli atəşkəs bəyanatının imzalanması ilk əvvəl belə nəticəyə gəlməyə zəmin yaradırdı ki, artıq düşmən öz acı taleyi ilə barışıb və nəhayət münaqişəyə birdəfəlik son qoyulacaq.**

Düzdür, münaqişə bitmiş hesab olunur və müharibə nəticəsində darmadağın edilmiş erməni ordusunun yenidən baş qaldırmaq şansı sıfıra bərabərdir. Lakin bu gün istər Ermənistanda, istərsə də Qarabağda mövcud olan revanşist qüvvələr uğradıqları sarsıdıcı məğlubiyyətləri ilə barışmadıqlarını bu və ya digər şəkillərdə bəyan edirlər.

Hətta daha əvvəllər Ermənistan hakimiyyətinin yuxarı eşalonunda yer alan siyasi dairələr revanşın ağır nəticələrə səbəb olacağını deyirdilərsə, indi bu zümrə tərəfindən də müharibə qoxusu verən fikirlər səsləndirilməyə başlanılıb. Misal üçün, Azərbaycanın sülh sazişi imzalamaq təklifləri rədd edilir, düşmən hansısa qəbulounmaz şərtlərini irəli sürür, sərhədlərin delimitasiyası və demarkasiyası prosesi isə demək olar ki, dalana dirənib.



### Laçında döyüş səviyyəsinə yaxın təlimlərin keçirilməsi...

Ancaq onu da unutmamalıyıq ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağ münaqişəsinin başa çatması ilə bağlı çoxsaylı çıxışlarında bəyan və xəbərdarlıq edib ki, əgər erməni tərəfi bir daha işğalçılıq niyyətlərini ortaya qoyarlarsa, “dəmir yumruq yerindədir” və düşmən hər an əvvəlkindən də ağır zərbələrə məruz qalaraq bu dəfə tamamilə məhv ediləcək.

Məsələn, o da əbəs deyil ki, Azərbaycan Ordusunun şəxsi heyətinin sayı və müdafiə xərcləri artırılır, o cümlədən, silah arsenalının, maddi-texniki bazaların, texnizatların yenilənməsi prosesi sürətlə aparılır. Həmçinin, Azərbaycan Silahlı Qüvvələri plana uyğun olaraq döyüş səviyyəsinin artırılması istiqamətində istər ayrılıqda, istərsə də qardaş Türkiyə ilə birlikdə hərbi təlimlər həyata keçirir.

Buna misal olaraq, Türkiyənin Konya şəhərində Hərbi Hava Qüvvələrimizin qardaş ölkənin “Şahinləri” ilə birlikdə “TurAz” təlimlərində iştirakını, Bakıda və Laçında döyüş səviyyəsinə yaxın təlimlərin keçirilməsini, habelə Azərbaycan-Türkiyə-Pakistan Silahlı Qüvvələrinin Qarabağda keçirəcəkləri “Üç qardaş” hərbi təlimlərini göstərə bilərik. O cümlədən, hazırkı dövrə qədər də Azərbaycan və Türkiyə Silahlı Qüvvələri, həmçinin qardaş Pakistan dəfələrlə bu kimi hərbi hazırlıq təlimləri keçirərək, öz peşəkarlıqlarını artırıblar. Bütün bunlar isə əlbəttə ki, bir amili ortaya çıxarır - hər an, hər saniyə düşmən tərəfindən başladıla biləcək silahlı təxribatların qarşısını almaq.

**Ukraynalı ekspert: “Ermənistan-Azərbaycan silahlı qarşıdurmasının növbəti mərhələsi qaçınılmazdır”**

### Səbri tükənməyə başlayan Bakı antiterror əməliyyatlarının başlaması üçün qırmızı düyməyə basacaqmı?

Cərəyan edən hadisələrin fonunda isə biz Qarabağda qanunsuz erməni silahlılarının yenidə baş qaldırmalarının, bunun müqabilində isə imzalanmış üçtərəfli bəyanata rəğmən onun bir sıra tələb olunan bəndlərinin pozulmalarının şahidlərinə çevririlik. Əbəs deyil ki, noyabrın 10-dan sonra düşmən tərəfindən hərbçilərimizə qarşı dəfələrlə (!) təxribatlar törədilib və onların qarşısı alınıb. Bu zaman istər-istəməz sual yaranır - Qarabağda yeni eskalasiya gözlənilirmi? Səbri tükənməyə başlayan Bakı antiterror əməliyyatlarının başlaması üçün qırmızı düyməyə basacaqmı?

Bir sıra hərbi və siyasi ekspertlər geniş miqyaslı hərbi əməliyyatların baş verməyəcəyini desələr də, lokal antiterror əməliyyatlarının start götürəcəyini də istisna etməyənlər var.

### Mixail Jiroxov: “İrəvan hər gün hərbi ritorikasını davam etdirir”

SİA xəbər verir ki, sözügedən məsələ ilə bağlı Ukraynanın hərbi eksperti Mixail Jiroxov caliber.aza açıqlamasında deyib ki, 44 günlük müharibənin birinci ildönümü günü yaxınlaşdıqca, onun dərin düşüncəsinə görə, hər iki münaqişə tərəfi onun həll olunmasından uzaqdadır və buna fərqli şəkildə hazırlaşırlar. “Əgər Bakı demək olar ki, hər gün Qarabağın işğaldan azad edilmiş ərazilərində infrastrukturların bərpa olunması ilə bağlı xoş xəbərləri ilə sevindirirsə, İrəvan əksinə, hər gün hərbi ritorikasını inkişaf etdirir”, deyən ukraynalı hərbi ekspertin sözlərinə görə, rus sülhməramlıları erməni və azərbaycanlı silahlı qüvvələrinin təmas xətlərində kifayət edəcək qədər uzun müddət qala bilməyəcəklər.

“Deməli, Ermənistan-Azərbaycan silahlı qarşıdurmasının növbəti mərhələsi praktiki olaraq qaçınılmazdır”, Jiroxov bildirib və qeyd edib ki, bu gün Ermənistan raket potensialının gücləndirilməsi, ya da ordusunu kiçik kalibirli havadan müdafiə raketləri ilə təchiz etməsi baxımınan nəhəng vasitələrə və zamana malik deyil.

### Eldar Namazov: “Azərbaycanın xüsusi xidmət gücləri separatçılara elə bir dərs veriblər ki, ermənilər bu informasiyanı yaymağa cürət etməyiblər”

Azərbaycanlı ekspert və politoloqlar da belə davam edə bilməyəcəyini, düşmənin əvvəl-axır və birdəfəlik yerində otuzdurulacağını istisna etmirlər. Belə ki, politoloq Eldar Namazov İctimai TV-yə verdiyi proqnozunda maraqlı bir fakta toxunub. “Bugünlərdə Azərbaycanın xüsusi xidmət gücləri separatçılara elə bir dərs veriblər ki, ermənilər bu informasiyanı yaymağa cürət etməyiblər. Hər kəs bilməlidir ki, bizim Ordumuz mövqelərində möhkəm dayanıb və Qarabağın cəbhə xəttindəki vəziyyət birmənalı olaraq Azərbaycan hərbi birləşmələrinin nəzarəti altındadır”, deyən politoloq da kifayət qədər ehtimal edir ki, düşmən ağıllanmazsa, ona əvvəlkindən də ağır zərbələr endiriləcək.

Beləliklə, fakt budur ki, son proseslər əslində “bıçağın sümüyə dirənməsi” arqumentini ortaya çıxarır və söz yox ki, regionda sülhün, inkişafın birdəfəlik əldə olunması istiqamətində hər an antiterror əməliyyatları başlaya bilər. Əks halda, istər Ermənistandakı dairələr, istər Qarabağdakı separatçıquldur xunta rejimi, istərsə də onların havadarlarının ayaqlarının “yer alması” mümkündür və bu mümkünyyatın qarşısının alınması üçün şanlı, müzəffər Azərbaycan Ordusu hər an hazır vəziyyətdə dayanıb və hədəfini nişan alıb.

***Rövşən RƏSULOV***

# Distant təhsili bərpa etmək vəziyyətdən çıxış yolu deyil

**“Brifinqdəki çıxışları, sual-cavabları diqqətlə izlədim. Təhsil naziri Emin Əmrullayev pandemiya şəraitində təhsilin təşkili ilə bağlı kifayət qədər əsaslandırılmış izahatlar verdi, məktəblərin, yeni tədris ilinin başlanması tarixlərini də elan etdi. Reallıq budur: bizim məktəbli şagirdlərimiz keçən ilin martından canlı, üzbəüz dərslər üçün çox darıxıblar və böyük həsrətlə yeni tədris ilini gözləyirlər”. Bu sözləri SİA-ya açıqlamasında Respublikanın əməkdar müəllimi Asif Cahangirov deyib.**

Ekspertin dediyinə görə, bir çox insanlar onlayn təhsili böyük bir fəlakət kimi qəbul edir. Halbuki, futuroloqların proqnozlarına,



araşdırmalara görə 10 ilə yaxın bir müddət ərzində gələcəyin məktəbi onlayn və offlayn təhsilin inteqrasiyası formasında təşkil olunacaqdır”. Asif müəllim sözlərinə belə davam edib: “Bizim təhsil sistemində informasiya texnologiyalarının



tətbiqi çox ləng gedirdi. Böyük sayda komputerlər alınmış olsa da, onlardan səmərəli və məqsədli istifadə sahəsində xeyli geriləməmiz var idi. Pandemiya dövründə isə qısa bir zamanda ümumi təhsilin onlayn formatda qurulmasında əhəmiyyətli irəliləyiş əldə olundu.

Onlayn təhsillə bağlı dəfələrlə demişəm ki, o, yalnız müəllim və şagirdlərin komputer qarşısında əyləşib dərs keçməsi kimi başa düşülməməlidir. Şagirdlərin saatlarla komputer qarşısında əyləşməsi onların sağlamlığına böyük ziyan vurur. Ona görə də dərslərdə müəyyən işgüzar fasilələr verilməli idi. Şagirdlərin komputerdən aralanıb müxtəlif fərdi və qrup tapşırıqlarının icrasına, dəqiq vəzifə bölgüsü aparılmaqla komanda fəaliyyətinin təşkilinə, layihələr üzərində işlərə, sms yazışmaları vasitəsilə müxtəlif müzakirələrin, diskussiyaların aparılmasına böyük diqqət yetirilməli idi. Onlayn təhsil interaktiv mühitdə qurulmalı idi.

Pandemiya şəraitində ən böyük zərbə məktəbəqədər yaşlı uşaqlara və birinci sinif şagirdlərinə vurulmuşdur. Çünki ev şəraitində keçirilən dərslərdə, məşğələlərdə onların sosiallaşması üçün imkanlar xeyli məhdudlaşmışdı. Erkən yaşlı uşaqlar canlı ünsiyyətdən, həmyaşıdları ilə birgə fəaliyyətlərdən, sosial bacarıq və səriştələri sistemli şəkildə mənimsəməkdən tamamilə təcrid olunmuşdular. Çox şadam ki, bizim məktəbəqədər yaşlı uşaqlarımız və birinci sinif şagirdləri nəhayət ki, qrup və sinif otaqlarına toplaşacaq, müəllim və həmyaşıdları ilə canlı ünsiyyət qurulacaq, birgə təhsil almaq imkanları bərpa olunacaqdır”.

Asif müəllim sonda offlayn təhsil mühitində koronavirus pandemiyası ilə bağlı qaydaların ciddi gözlənilməsinin vacibliyini xüsusi vurğuladı. “Bəzi mənbələrə görə pandemiya 2024-cü ilədək davam edə bilər, başqa mənbələr isə hətta 2028-ci ilə işarə edir. Bu məsələlərə hamımız çox böyük həssaslıqla yanaşmalıyıq. Müəllimlər də, valideynlər də unutmamalıdır ki, şagirdlərdə koronavirus əksər hallarda simptomsuz keçir. Hamımız çox diqqətli olmalı, sinifdaxili təhsil prosesində, tənəffüslər zamanı şagird və müəllimlər, bütün məktəb heyəti mövcud tələblərə tam riayət etməlidir. Brifinqdə səsləndirildi ki, şagirdlərin maska taxıb-taxmamasına dair qərarı valideyn özü verməlidir. Məncə, burada müəyyən tələsikliyə yol verilmişdir. Dünya miqyasında aparılmış xeyli sayda tədqiqatlar göstərir ki, maskada olan insanın koronavirusa yoluxma ehtimalı çox azdır. Qəti əminəm ki, məktəblərdə, sinif daxilində, qrup şəklində istənilən fəaliyyətlər zamanı şagird və müəllimlər mütləq qaydada maskadan istifadə etməlidirlər”.

Məsələ ilə bağlı təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi də münasibət bildirib: “Dünənki brifinqdəki qərarlar düşünürəm ki, təhsil üçün uğurlu olacaq. O baxımdan ki, dərslərin ənənəvi qaydada bərpa olunması, onun təmin olunmasına imkan yaradır. Biz distant formada təhsili təmin edə bilmirdik. İndi isə qismən bu təmin olundu. Amma ənənəvi qaydada dərslər şagirdlər tərəfindən daha yaxşı mənimsənilir”.

“Eyni zamanda, burada həm təhsil verənlər, həm təhsil alanlar canlı ünsiyyətdə olduğu üçün dərslərin ümumi tədris planında nəzərdə tutulan mövzuların keçirilməsi daha əlverişli imkan yaradır. Hazırda veril-



miş qərarlara baxsaq düşünürəm ki, biz gələcəkdə yoluxma hallarında daha çox artım olarsa, o zaman yenidən distant formada təhsilə keçid ola bilər. Çünki Təhsil Nazirliyi tərəfindən belə bir fikir də vurğulandı. Amma hal-hazırkı nəticə etibarilə distant təhsili bərpa etmək vəziyyətdən çıxış yolu deyil. Bizim təklifimiz ondan ibarətdir ki, hər hansı bir məktəbdə müəllim və yaxud da şagird yoluxubsa yalnız onlar karantinə alınmalıdır və onlara görə bütün tədris prosesi distant formaya keçirilməli deyil. Yəni dərslər ənənəvi qaydada davamlı olmalıdır”.

***Ayşən Vəli***

# İranın “Babak copper” şirkəti Ermənistanda nə axtarır?



Ermənistanın işğalçılıq siyasətinin davam etməsinə stimul verən amillər artıq gizlilikdən çıxıb. Bu ölkə bütün qonşularına qarşı ərazi iddiasındadır. Uydurma tarix, qondarma xəritələr, oğurlanmış mədəniyyət, adət-ənənələr işğalçı Ermənistanın və ermənilərin xislətinə hopub, həyat tərzinə çevrilib, desək, yanılmarıq. Ermənilərin bu əməlləri ilə həmrəy olanlar, işğalçılıq siyasətinə dəstək verənlər məxfiliklərini qorumağa çalışsalar da, əvvəl-axır çirkin oyunları üzə çıxır, ifşa olunurlar.





Sentyabrın 8-də Ermənistanın Ərazi İdarəetmə və İnfrastruktur nazirinin müavini Kristin Qaleçyan İranın məşhur “Babak copper” şirkətinin icraçı direktor Məhəmməd Rza Mirzənin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Soruşmaq olar, “burada nə var ki?”. Məsələ bundadır ki, cənub qonşumuz, din, dil, məzhəb birliyimiz olan İranın ən böyük və məşhur mədən şirkətlərindən biri olan “Babak copper” Ermənistanın əsas gəlir sektoru olan dağ-mədən sənayesinə külli miqdarda investisiya yatırmaq istəyir. Bu niyyəti görüş zamanı şirkətin rəhbəri cənab Mirzə də təkrarlayıb: “Görüşün məqsədi “Babak copper”in potensialını təqdim etmək və Ermənistana investisiya qoyma imkanlarını erməni tərəfi ilə müzakirə etməkdir”.

Öz növbəsində, Qaleçyan Ermənistanla İran arasında bir çox sahələrdə artıq uğurlu əməkdaşlığın olduğunu vurğulayıb, yeraltı sektorun da İran tərəfinin maraqlarına uyğun olduğunu bildirməkdən məmnun olduğunu bildirib.

Qeyd edək ki, “Babak copper” şirkəti İran iqtisadiyyatına 400 milyon avrodan çox sərmayə yatıran şirkətlərdən biridir. Həmçinin İranda dağ-mədən sənayesi, xüsusən mis istehsalı sahəsində fəaliyyət göstərən azsaylı şirkətlərdəndir. İranda mis mədənlərinin 40 faizi bu şirkətin vasitəsilə istismar edilir. Ermənistana “Babak copper”i çəkib-gətirən isə müharibədən sonra perspektivsizlik səbəbindən Ermənistanı tərk edən xarici şirkətlərin yerini doldurmaqdır. Əldə edilən məlumata görə, Zod qızıl yatağının Ermənistan tərəfinə düşən hissəsindəki mədənlər də bu şirkətin hədəflərindən biridir.

# Aydın Mirzəzadə: 27 sentyabrdan başlanan şərəfli yol Qələbəmizlə başa çatdı



“27 sentyabr bundan sonra Azərbaycan xalqının tarixində çox önəmli bir yer tutacaq. Həmin gün Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu bütün cəbhə boyu əks-hücuma keçərək 44 gün ərzində erməni qoşunlarını Azərbaycan ərazisindən qovdu, ərazi bütövlüyümüzü bərpa etdi. Azərbaycan bu günü səbirsizliklə gözləyirdi, buna hazırlaşırdı. Ərazi bütövlüyümüzün təmin edilməsi üçün Azərbaycanın Ermənistana etdiyi ən böyük güzəşt diplomatik danışıqların aparılması idi. Ancaq Ermənistan bunu qiymətləndirə bilmədi. İşğalçı dövlət belə hesab etdi ki, onun çirkin niyyətlərinə Azərbaycan əbədi olaraq dözəcək, dünya Ermənistanı dəstəkləyəcək. Dünya tarixində heç zaman tutulan torpaqlarda dağıntılar aparılmır, qəbiristanlıqlar dağıdılmır, yerli əhali qovulmur. Ermənistan bunun hamısını etdi. Özünün xislətini, əsl mahiyyətini ortaya qoydu.”

Bu fikirləri Milli Məclisin deputatı Aydın Mirzəzadə bildirib. A.Mirzəzadə qeyd edib ki, Azərbaycan xalqı heç zaman işğalla barışmayacaqdı: “1988-ci ildə xalqımızın Ermənistanın Azərbaycan ərazilərinə iddiasına qarşı ayağa qalxması torpağa bağlılığımızın, heç kəsə güzəştə getməyəcəyimizin nümunəsi idi. Baxmayaraq ki, Azərbaycan o zaman başqa dövlətin tərkibində idi. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi əsasında hakimiyyətə qayıdışı ilə Dağlıq Qarabağ məsələsində köklü dəyişikliklər baş verdi. Hər bir sahədə uğurlara imza atıldı, ordu qələbəyə hazırlandı, ölkəmiz beynəlxalq aləmdə öz haqq səsini bütün ünvanlara çatdırdı. Ən əsası isə 30 il ərzində heç zaman Dağlıq Qarabağ məsələsi ümummilli məsələlər çərçivəsində arxa plana keçmədi. Hər bir azərbaycanlı ərazi bütövlüyü məsələsini özünün şəxsi məsələsi hesab edirdi.”

Millət vəkili vurğulayıb ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin apardığı siyasət Azərbaycan dövlətini gücləndirdi: “Azərbaycan xalqının milli birliyi təmin olundu. Azərbaycanın bütün resursları ərazi bütövlüyümüzün təmin olunmasına istiqamətləndirildi. Aparılan siyasət Ermənistanın növbəti təxribatının qarşısını alaraq Vətən müharibəsinin başlanmasına, ərazi bütövlüyümüzün təmin olunmasına imkan yaratdı. Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad edilməsi üçün həyatını qurban verən 3000-ə qədər şəhidimizi böyük ehtiramla xatırlayır. Onlar bizim tariximizin qəhrəmanları, bizim üçün nümunədirlər. Onların ailələri, yaxınları bizim üçün bir əmanətdir ki, dövlət onlara daim diqqət və qayğı göstərir. Qazilərimizin müalicəsi, onların sosial problemlərinin həlli dövlətimizin diqqətindədir. 27 sentyabrdan başlanan şərəfli yol Qələbəmizlə başa çatdı. Şuşamız, digər torpaqlarımız işğaldan azad edildi, bu ərazilərdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır. Hazırda işğaldan azad edilmiş torpaqlarda bərpa və quruculuq işləri aparılır, tezliklə cənnət məkana çevriləcəklər.”

# Azad olunmuş ərazilərimizdə məktəblər yenidən inşa olunur



## Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən silahlı təcavüzü zamanı mindən çox təhsil müəssisəsi və uşaq bağçası tamamilə məhv edilib

Bu gün qloballaşan dünyamızda uşaqların xoşagəlməz mühitlə rastlaşması hər kəsə bəllidir. Toqquşmalar, qanlı müharibələr, terrorlar, xəstəliklərlə yaşadığımız dünya uşaqlara da təsirsiz ötüşmür. Belə bir zamanda bu uşaqların təhsildən kənarda qalmaması aktullıq kəsb edir. Gələcəyimiz olan uşaqların normal şəraitdə təhsil almaları, sağlam mühitdə böyümələri, psixoloji travmalardan uzaq yaşaması üçün birgə səylər vacibdir. Bildiyimiz kimi, sentyabrın 9-u Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 74/275 saylı qətnaməsinə əsasən, Təhsilin Hücumdan Beynəlxalq Müdafiəsi Günü kimi qeyd edilir. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Baş Assambleyanın Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü elan etməsi barədə yekdil qərarını alqışlayıb və YUNESKO və UNİCEF-i münaqişədən zərər çəkmiş ölkələrdə yaşayan milyonlarla uşağın acınacaqlı vəziyyəti barədə məlumatlı olmağa çağırıb. Əlbəttə ki, təhsilin bütün səviyyələrində olan, xüsusilə də həssas qruplara aid bütün şagirdlər üçün inklüziv, ədalətli, keyfiyyətli təhsilin qorunması və təmin edilməsi vacib amillərdəndəir. Münaqişə yarandığı bölgələrdə məktəblərin, şagird və müəllimlərin hücumlardan qorunması mütləqdir. Uşaqların təhsil almalarına qarşı yönələn istənilən maneənin, hücuma qarşı sərt mövqe göstərilməli və qarşısı alınmalıdır. Ötən əsrin əvvəllərində Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində bu acınacaqlı tarixi yaşamışıq. Məktəblərimiz ermənilər tərəfindən dağıdılmış, müəllim və şagirdlərə ziyan dəymişdir. 44 günlük Vətən müharibəsi dövründə də dünyanın gözü qarşısında Azərbaycan bu zərbələrə yenidən məruz qaldı.







Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi 9 sentyabr - Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü ilə bağlı yaydığı məlumatda qeyd olunub ki, Uşaq Hüquqları Konvensiyasının və onun Uşaqların Silahlı Münaqişələrə cəlb edilməsinə dair Əlavə Protokolunun, habelə 1949-cu il Müharibə Qurbanlarının Müdafiəsi üzrə Cenevrə konvensiyalarının tərəfi olan Azərbaycan Respublikası uşaq hüquqlarının səmərəli müdafiəsinin təmin edilməsinə və silahlı münaqişələrdən əziyyət çəkən uşaqların vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş beynəlxalq səylərə qətiyyətlə və davamlı olaraq dəstək verir.

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etmiş silahlı təcavüzü zamanı Azərbaycanın təhsil infrastrukturuna ciddi ziyan vurulduğu, mindən çox təhsil müəssisəsi və uşaq bağçasının tamamilə məhv edildiyin məlumatda yer alıb: "Yüz minlərlə azərbaycanlı qaçqın və məcburi köçkün oğlanlar və qızlar Ermənistanın hərbi təcavüzündən irəli gələn ciddi problemlərin təsiri altında təhsil hüquqlarını həyata keçirə bilibər. Azərbaycan ərazisindəki təhsil müəssisələri Ermənistan silahlı qüvvələri tərəfindən mütəmadi olaraq heç bir fərq qoyulmadan atəşə məruz qalıb, məktəblilər və təhsil personalı təhlükə altında tədris prosesində iştirak edib".

Vurğulamaq yerinə düşər ki, Ermənistan silahlı qüvvələrinin Tərtər rayonun artilleriya atəşinə tutması nəticəsində 18 məktəb binasına ziyan dəymiş, 2 məktəb binası tamamilə yararsız vəziyyətə düşmüşdü. Sinif otaqları, binalar tamamilə dağıdılmışdı. Erməni işğalçıları tərəfindən Gəncəşəhərinin ballistik raketlə hədəfə alınması nəticəsində doqquz məktəbə ziyan dəymişdir. Bu kimi hallar Azərbaycan təhsilinə hücumdur.Nazirliyin məlumatında bildirildiyi kimi, ötən il baş vermiş 44 günlük müharibə zamanı da Ermənistan beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq məktəbləri qəsdən hədəfə alıb, nəticədə 54 məktəbimiz dağıdılıb, 6-15 yaş arası 10 məktəbli faciəvi şəkildə qətlə yetirilib, 16 məktəbli isə yaralanıb: "Münaqişəni geridə qoyaraq, Azərbaycan diqqətini bütün uşaqlarımızın təhsil və potensiallarından təhlükəsiz şəkildə istifadə etmələrinə yönəldib. Hazırda biz azad olunmuş ərazilərimizdə məktəblərimizi yenidən tikirik".

Sentyabrın 9-u tarixini Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü kimi dünya ictimaiyyəti ilə birgə qeyd edərək, azərbaycanlı məktəblilərə qarşı törətdiyi müharibə cinayətlərinə görə Ermənistanın daşıdığı məsuliyyətini və uşaqların təhlükəsiz şəraitdə təhsil almaq hüququna hörmət edilməsinin vacibliyini bir daha vurğulayırıq, deyə məlumatda bildirilib: "Ermənistandan silahlı qüvvələri tərəfindən törədilmiş müharibə cinayətlərinə dair çoxsaylı faktları araşdırmaq və bu cinayətləri törədənləri məsuliyyətə cəlb etmək beynəlxalq öhdəliklərinə riayət etməyi tələb edirik".

Əlbəttə ki, silahlı münaqişələr zamanı bütün səviyyələrdə təhsil müəssisələrinə hücumların baş verməsi ilə əlaqədar BMT tərəfindən Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Gününün elan edilməsi təqdirəlayiqdir.

**Zümrüd BAYRAMOVA**

## Rusiya yeni terror təhlükələrini açıqladı



"...2001-ci ilin sentyabrında Nyu-Yorkda həyata keçirilən terror aktından sonra qlobal terrorizm çox inkişaf edib". Bunu Rusiya xarici işlər nazirinin müavini Oleq Syromolotov deyib. Onun sözlərinə görə, həmin terror aktından nə qədər vaxt keçməsinə baxmayaraq, bu gün də terror təhlükəsinin kəskin şəkildə inkişaf etdiyini inkar etmək son dərəcə çətindir. Çünki bu gün ölkələrin göz ardı edə bilməyəcəkləri yeni çağırışlar ortaya çıxmaqdadır.

...Silahlılar terror hücumları hazırlayıb və həyata keçirmək üçün pilotsuz uçan aparatlardan da istifadə etməyə başlayıblar, cəzaçəkmə müəssisələrində işə qəbulu gücləndirirlər, müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə edərək radikal ideyaların təbliğatını başladıblar...

Rusiyalı məmura görə, bu gün terrorçular yeni maliyyə mənbəyi əldə etməkdə də elə bir çətinlik çəkmirlər. Syromolotov Rusiyanın bütün bunları nəzərə alaraq, bu sahələrdə həm ikitərəfli formatda, həm də müxtəlif beynəlxalq platformalarda çoxşaxəli əməkdaşlıq həyata keçirdiyini, ölkəsinin bu sahədə ən əhəmiyyətli iştirakçılarından biri olduğunu bildirib.

***Ağasəf***

## USAİD-in ermənipərəst rəhbəri yenə Azərbaycanı ittiham etdi

**EKSKLÜZİV FAKT+VİDEO!**



USAİD-in ermənipərəst rəhbəri, ermənilərin "qondarma soyqırımı günü"nü özünün doğum günü elan edən Samanta Pauer yenidən Azərbaycana və qardaş Türkiyəyə qarşı sərsəm ittihamlarla çıxış edib. SİA-nın əldə etdiyi məlumata görə, o, bu dəfə Ermənistandakı Amerika Universitetinə yeni qəbul edilmiş tələbələrə onlayn müraciət edib və Azərbaycanla Türkiyəni "vəhşi" adlandırıb. Heç bir məntiqə və mənaya sığmayan bu cür davranışın, məhz Samanta adlı Sorosçu korrupsionerinə aid olması isə, əslində, təəccüb doğurmur. Belə ki, bu şəxs uzun illərdir ki, istər ABŞ-da, istərsə də digər Qərb ölkələrində açıq-aşkar türkofobiya siyasəti yürütməsi ilə yadda qalır.

Beləliklə, İkinci Qarabağ müharibəsində öz suveren ərazilərinin azadlığı uğrunda canlarından keçən Azərbaycan əsgər və zabitlərini, eləcə də ölkəmizə mənəvi və s. dəstəyini əsirgəməyən Türkiyə dövlətini "vəhşi" adlandıran bu türkofob ünsür adıçəkilən universitetin tələbələri qarşısında onlayn çıxış edərkən müharibədə ölən 6 nəfər erməni tələbənin ölümündən təəssüf hissi keçirdiyini bildirib, onların qohumlarına başsağlığı verib. Lakin bu zaman belə bir sual yaranır ki, görəsən, Samanta Pauer erməni terrorları nəticəsində Azərbaycan ərazilərində vəhşicəsinə öldürülən azərbaycanlılara görə təəssüf hissi keçirirmi? Yaxud, İkinci Qarabağ müharibəsində torpaqların azadlığı uğrunda canlarından keçərək şəhid olan gənc tələbələrin, ali təhsil müəssisələri məzunlarının ölümlərinə görə təəssüf edirmi? Əlbəttə ki, əsla! Çünki o, açıq-aşkar ermənipərəstdir və erməni lobbisinin pullarını yeyir, üstəlik, şefi olan Sorosun da dəstəyini almaqda davam edir.

Və bu, həmin Samantadır ki, hər dəfə çıxışının əsas hissəsini Bayden administrasiyasının "qondarma erməni genosidini" tanıması ilə fəxr etdiyini bildirir və bu səbəbdən "nə dərəcədə rahatlıq hissi" tapdığını etiraf edir.

Dəyərli oxucu auditoriyamız, Azərbaycan və Türkiyəyə qarşı olan həmin çıxışın videosu ilə aşağıdakı linkdən tanış ola bilərsiniz:

https://www.usaid.gov/news-information/videos/american-university-armenia-commencement-remarks

Xatırladaq ki, USAİD-in rəhbəri əvvəllər də Azərbaycan xalqını təhqir və təhdid edərək sərsəm fikirlərini ictimailəşdirib və biz SİA olaraq bu haqda silsilə yazılarla çıxış etmişik. Və...

Və bütün bu biabırçılıqlardan sonra biz bu ünsürün rəhbərlik etdiyi təşkilatı və onun nümayəndələrini hələ də Azərbaycandan qovmamışıq. Vaxtı deyilmi?

***Rövşən RƏSULOV***

# Böyük qayıdışın reallıqları və çağırışları

## AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəylinin yap.org.az-a müsahibəsi

***- İsa müəllim, tarixi Zəfərimizin Azərbaycan xalqının məğrurluğunun, yenilməzliyinin, kimliyinin bir daha dünyaya təqdimatı oldu. Bu, Azərbaycan ziyalısı olaraq Sizdə hansı hissləri yaratdı?***

- Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə II Qarabağ savaşında, Vətən müharibəsində qazanılan tarixi Zəfər Azərbaycanın çoxəsrlik tarixinin nadir hadisəsidir. Azərbaycan tarixində uzun əsrlər boyu aparılmış müharibələr ya tarixi sərhədlərimizin daha da genişləndirilməsi, ya da torpaqlarımızın müəyyən bir hissəsinin itirilməsi ilə nəticələnmişdir. Ali Baş Komandana İlham Əliyevin rəhbərlik etdiyi Vətən müharibəsi isə vaxtilə itirmiş Azərbaycan torpaqlarının geri qaytarılması, bərpa edilməsi missiyasının həyata keçirilməsi ilə tarixə daxil olmuşdur.

Dünya tarixində müharibələrin təsnifatının ədalətli və ədalətsiz müharibələr deyə iki qismə ayrıldığını nəzərə alsaq, Azərbaycan tərəfinin öz torpaqlarını qaytarmaq uğrunda apardığı müharibə ədalətli müharibə nümunəsidir. Ermənistanın işğalçılıq siyasəti isə həmin ölkənin qarşı tərəf kimi ədalətsizliyinin göstəricisidir. Bu mənada II Qarabağ müharibəsində qazanılan tarixi Zəfər Azərbaycanın ədalətsizcəsinə işğal olunmuş torpaqlarının təcavüzkar düşməndən azad edilməsi ilə bərabər, həm də dünya müharibələri, tarixində ən ədalətli müharibələrdən biri kimi də mühüm əhəmiyyətə malikdir. II Qarabağ müharibəsində işğalçının yox, ədalətin Zəfər çalması dünyanın müxtəlif ölkələrində ərazi bütövlüyü uğrunda mübarizə aparan xalqlarda özünəinam yaratmağa xidmət etdiyi üçün həm də beynəlxalq əhəmiyyət kəsb edir.

***- Mədəniyyət paytaxtımız, Azərbaycanın döyünən ürəyi Şuşa 30 il əsarətdə olsa da, əyilmədi, milli ruhu qorudu. Azərbaycan Prezidentinin "Əziz Şuşa, biz səni dirçəldəcəyik" - çağırışı bu günkü reallıqlarda az əksini tapır. Şuşa bu gün ev sahibliyi etdiyi tədbirlərlə dünyaya hansı mesajları ünvanlayır?***

- İlk növbədə onu qeyd etmək istərdim ki, Azərbaycanın qədim tarixi ərazisi olan Qarabağın əsas inzibati mərkəzi olmuş Şuşa şəhəri əyilməzlik rəmzi kimi tanınır. Təsadüfi deyildir ki, 1752-ci ildə Pənahəli xan tərəfindən sərt qayalar üzərində salınmış bu şəhər bütövlükdə Şuşa Qalası adlandırılır. Azərbaycanın Şuşa şəhəri dünyada Qala-şəhər statusuna malik olan nadir şəhərlərdən biridir.



İkincisi isə Şuşa şəhəri sözün həqiqi mənasında Azərbaycanın ədəbiyyat və mədəniyyət paytaxtı funksiyasını öz mahiyyətində yaşadır. Prezident İlham Əliyevin Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan etməsi tarixi reallığın bərpa edilməsi və müasir inkişafın həmin ənənələr əsasında davam etdiriləcəyinin bəyanatından ibarətdir. Bu şəhərin ədəbiyyat və incəsənət sahəsindəki görkəmli yetirmələri bütövlükdə Ermənistanın həmin sahədəki tanınmış adamlarından çoxdur.

Bir neçə gün bundan əvvəl Vaqif Poeziya Günlərində iştirak edərkən Şuşa şəhəri ilə ilk tanışlıq zamanı gördüm ki, vaxtilə Molla Pənah Vaqifin müəllimlik etdiyi Saatlı məhəlləsinin ətrafındakı eni-uzunu çox da böyük olmayan bir-iki küçədə Əhməd Ağaoğlu kimi mütəfəkkir siyasi şəxsiyyət, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov kimi böyük yazıçılar, görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli, məşhur tarixçi və ictimai xadim Mir Möhsün Nəvvab, Azərbaycan tarının atası Sadıqcan və başqalarının doğulduqları, yaşadıqları binaların arasında cəmi yüz-iki yüz metrlik məsafə vardır. Böyük demokrat yazıçısı Cəlil Məmmədquluzadənin 1918-1920-ci illərdə ömür-gün və əqidə yoldaşı Həmidə xanımla birlikdə müəyyən fasilələrlə yaşadıqları bina və Həmidə xanımın xeyriyyəçilik məqsədilə açdığı toxuculuq emalatxanası da həmin küçələrin kəsişdiyi məhəllədə yerləşir. Bu cəhətdən Şuşanı Fransadakı sənətkarlar şəhəri kimi tanınan Parnas şəhəri ilə müqayisə etmək olar.

Tarixçiliklə milli ədəbi-mədəni dəyərlərin üzvü vəhdəti Şuşa şəhərinin simasını müəyyən edir. Möhkəm və davamlı ədəbi-mədəni xüsusiyyətlərə malik olduğu üçün Ermənistan Şuşa şəhərini işğal etsə də heç cür erməniləşdirə bilməmişdir. Əksinə, Paşinyanın Şuşada - Cıdır düzündə Yallı oynaması Ermənistanın və onun rəhbərinin bu tarixi şəhərdəki Azərbaycan mədəniyyəti ab-havasından kənara çıxa bilmədiklərini nümayiş etdirir. Paşinyanın Cıdır düzündə Yallı rəqsi ifa etməsi bilərəkdən və ya bilməyərəkdən onun hələ Vətən müharibəsi başlamamışdan qabaq Şuşa şəhərini Azərbaycanın mədəniyyət mərkəzi kimi tanıması deməkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əziz Şuşa, biz səni dirçəldəcəyik" çağırışı həm Şuşa şəhərinin, həm də geniş mənada Qarabağın yenidən qurulmasının dövlət səviyyəsində elan edilmiş paroludur. Füzuli - Beyləqan tərəfdən Şuşa şəhərinə qədər təxminən 90 kilometrlik məsafəni əhatə edən Zəfər yolu Qarabağdakı Böyük Quruculuq hərəkatının qan damarıdır.

Şuşa şəhərində Böyük Quruculuq hərəkatının Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün ermənilər tərəfindən güllələnmiş heykəllərinin yenidən ucaldılması, Üzeyir Hacıbəyliyə heykəl qoyulması, Bülbülün ev muzeyinin qurulması ilə başlanması Prezident İlham Əliyevin bu tarixi şəhərin bərpasına onun ədəbiyyat və mədəniyyət sahəsindəki ənənələrinin qaytarılması ilə start verməsinin göstəricisidir. Molla Pənah Vaqifin məqbərəsinin yenidən bərpa edilməsi də böyük mədəniyyət hadisəsidir.

Fikrimizcə, Şuşa şəhərindəki Xarı Bülbül və Qarabağ mehmanxana kompleksləri də ənənə və müasirliyi özlərində yaşadan müasir mədəniyyət abidələridir. Gövhər ağa məscidinin bərpası müstəqil Azərbaycan dövlətinin dini-mənəvi dəyərlərlə ədəbi-mədəni özünəməxsusluqların harmoniyasına verdiyi önəmin Şuşa şəhəri quruculuğundakı əyani ifadəsidir. Son günlərdə möhtərəm Prezidentimiz tərəfindən təməlləri atılmış 5 ulduzlu mehmanxana və yaşayış kompleksləri ən yaxın zamanda Şuşa şəhərinə onun daimi sakinlərinin qayıdışına, bu ecazkar şəhərə xarici turistlərin axınına doğru atılmış mühüm addımlardır. Eyni zamanda, Şuşada başlanmış böyük quruculuq işləri və burada keçirilən möhtəşəm tədbirlər bu şəhərdə həm də beynəlxalq səviyyəli ədəbiyyat mədəniyyət mərasimlərinin keçiriləcəyinə tam inam yaradır. Vaxtilə Qafqazın konservatoriyası adlandırılan Şuşa şəhəri qısa müddətdən sonra geniş mənada XXI əsrdə dünyanın ən mötəbər söz və sənət ocaqlarından birinə çevriləcəkdir. Azərbaycan Respublikası Prezidentinin Şuşa şəhərinin cənnətə çevrilməsi haqqındakı mesajlarının gerçəkləşəcəyi gün çox da uzaqda deyildir.

***- "Xarı bülbül" musiqi festivalının ardınca Vaqif Poeziya Günləri ənənəsinin bərpası özündə hansı çağırışları ehtiva edir? Dövlət başçısı İlham Əliyevin və birinci xanımı Mehriban Əliyevanın Şuşaya hər səfərləri Azərbaycan mədəniyyətinin, ədəbiyyatının zənginliyinə işıq salır. Vaqif Poeziya Günlərinin keçirilməsinin mənəvi və siyasi əhəmiyyətini necə şərh edərdiniz?***

- İşğaldan azad edildikdən sonra Şuşa şəhərində - Cıdır düzündə keçirilmiş "Xarı Bülbül" Musiqi Festivalı Azərbaycan Respublikasının qazandığı tarixi Zəfərin təntənəsinə həsr olunmuş möhtəşəm mədəniyyət hadisəsidir. Xarı Bülbül Musiqi Festivalı nəhəng Qələbə atəşfəşanlığının əyani təcəssümüdür.

Vaqif Poeziya Günlərinin keçirilməsi isə özündə bir çox mənaları ifadə edir:

**1.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə ilk növbədə vaxtilə ulu öndər Heydər Əliyevin başladığı bu mühüm ədəbiyyat siyasətinin davam etdirilməsini və yaşadılmasını təmin etmişdir.

**2.** Vaqif Poeziya Günlərinin keçirilməsi ilə Şuşada - Qarabağda müasir şəraitdə ədəbiyyat və mədəniyyət ab-havasının qaytarılması gerçəkləşdirilmişdir.

**3.** Geniş tərkibdə Azərbaycan ziyalıları, elm və mədəniyyət xadimləri ilə yanaşı dövlət rəsmilərinin, millət vəkillərinin də iştirak etdiyi Vaqif Poeziya Günləri ədəbiyyat tədbirinin sədlərini aşaraq, mühüm ictimai-mədəni hadisə səviyyəsinə yüksəlmişdir. Prezident İlham Əliyevin Vaqif Poeziya Günlərinin açılışı mərasimindəki dərin məzmunlu və parlaq nitqi Qarabağa Böyük Qayıdış hərəkatı ilə ölkəmizin ədəbiyyat və mədəniyyət siyasətinin üzvü vəhdətinin canlı təcəssümünün ifadəsidir.

**4.** Ədəbiyyat hadisəsi kimi də Vaqif Poeziya Günləri müstəqillik dövrü Azərbaycan ədəbiyyatının mübariz ruhunun təntənəsi kimi səslənmişdir. Azərbaycan ədəbiyyatının ağsaqqal nəsillərinin - Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anarın, xalq yazıçısı Elçinin çıxışları və xalq şairi Nəriman Həsənzadənin həyəcanlı şeiri ədəbiyyatımızın müdriklik və müasirlik ruhunun mesajlarıdır. Gənc nəsil şairlərin Molla Pənah Vaqifin məqbərəsi qarşısında oxuduqları şeirlər Azərbaycan ədəbiyyatının yeni tarixi epoxadakı poetik monoloqlarıdır.

**5.** Vaqif Poeziya Günləri çərçivəsində keçirilmiş simpozium ölkəmizdə poeziya günləri ilə elmi fikrin əlaqələndirilməsinin ilk modelidir. Bu, böyük Məhəmməd Füzulinin vaxtilə dediyi "elmsiz şeir əsası yox divar olur" misrasındakı gerçəkliyin Şuşada həyata keçirilməsinin nümunəsidir. Fikrimizcə, bundan sonra başqa görkəmli şairlərimizin adı ilə əlaqədar keçirilmiş poeziya günlərində də paralel olaraq elmi konfransların keçirilməsi həm ədəbiyyatın və həm də elmin xeyrinə olar.

**6** Nizami Gəncəvi ilində Vaqif Poeziya Günlərinin keçirilməsi ölkəmizdə ədəbiyyat və incəsənətin inkişafına dövlət səviyyəsində göstərilən böyük qayğının əməli ifadəsidir.

**7.** Molla Pənah Vaqifin Şuşa şəhərindəki məqbərəsi önündə təşkil olunmuş Poeziya Günləri Böyük Qayıdışın poetik manifestidir.

***- İşğaldan azad edilmiş şəhərlərimizin baş planında tarix və müasirliyin vəhdətinin qorunması xüsusi diqqət çəkir. Onunla bağlı fikirlərinizi bilmək istərdik. Tarixi torpaqlarımıza Böyük Qayıdış ölkəmizin qarşısında hansı imkanları açacaq?***

- Böyük Qayıdış - Qarabağın işğaldan azad edilməsinin və Qarabağa dönüşün İlham Əliyev Proqramıdır.

Böyük Qayıdış - Azərbaycanın ərazi bütövlüyünün tam təmin edilməsinin strategiyası və taktikasıdır.

Böyük Qayıdış - ölkəmizin coğrafi xəritəsində yenidən salınmış çoxsaylı şəhərlərə və kəndlərə, xalqın istifadəsinə qaytarılmış geniş ərazilərə, münbit torpaqlara yeni həyatın gətirilməsi deməkdir.

Böyük Qayıdış - Azərbaycan Respublikasının hərbi cəhətdən ölkəmizin ayrılmaz bir parçası olan Qarabağın müdafiə olunmasında və iqtisadi-mədəni baxımından inkişaf etdirilməsində böyük addımlardır.

Böyük Qayıdışın ilk nümunəsi olan Zəngilan rayonundakı Ağıllı kənd layihələrinin icrasına başlanılması Böyük Quruculuq hərəkatındakı novatorluğun bariz nümunəsidir. Şuşa şəhərindəki Gövhər ağa məscidinin

# Böyük qayıdışın reallıqları və çağırışları

*AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəylinin yap.org.az-a müsahibəsi*

bərpası isə mövcud tarixi ənənənin qorunub saxlanılmasına canlı misaldır. Ənənə və novatorluq Qarabağın yenidən bərpasının qoşa qanadlarıdır. Ənənələrin yaşadılması Qarabağın tarixi simasının qorunub saxlanılmasına, novatorluğun tətbiq edilməsi isə inşaat və memarlıqda yeniləşdirmənin tətbiq edilməsinə imkan yaradır. Beləliklə, ənənə və novatorluğun üzvü şəkildə nəzərə alınması ilə tarixi müasirləşdirmənin üzvü sintezi əsasında XXI əsrin Qarabağının yeni yaşayış yerlərinin müasir görkəmi müəyyən edilir. Fikrimizcə, bu, düşünülmüş və məqbul bir quruculuq yoludur. Bununla belə, arzu edərdim ki, Qarabağın kəndləri və şəhərlərinin yenidən bərpası zamanı ermənilər tərəfindən dağıdılmış hər yaşayış yerinin bir hissəsinin, hətta viran qoyulmuş qəbristanlıqların bir parçasının açıq səma altında muzey kimi qorunub saxlanılmasına nail olunsun. Bu, Azərbaycanın yeni nəsillərinə erməni vəhşiliyinin miqyasını real olaraq çatdırmaq və vətənpərvərlik tərbiyəsini həyata keçirmək üçün çox faydalı olar.

***- İsa müəllim, Azərbaycan məğlub Ermənistana düşdüyü çətin vəziyyətdən çıxmaq üçün növbəti şansı verərək, sülh müqaviləsinin imzalanmasını təklif və eyni zamanda, “bu təklif masa üzərində əbədi saxlanmayacaq” çağırışını etdi. Qarşı tərəfin bu təklifi təxribatlar törətməklə, atəşkəsi pozmaqla cavablandırmasını necə dəyərləndirirsiniz?***

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistana etdiyi sülh müqaviləsinin imzalanması çağırışı müstəqil dövlətimizin Qarabağda qazandığı tarixi Zəfərdən sonra regionda yaradılmış yeni reallığın ən gerçək tələbidir. Bu, Azərbaycan Prezidentinin müharibə yox, sülh tərəfdarı olmasının, ölkəmizin zorla müharibəyə təhrik və məcbur edilməsinin ifadəsidir. Ermənistana edilən sülh müqaviləsi təklifi Qafqaz regionunda sabitliyin əmin-amanlığın, qarşılıqlı etimadın və əməkdaşlığın təmin edilməsinə hesablanmış gerçək bir çağırışdır.

Sülh müqaviləsi qonşu dövlətlərlə - Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası və İran İslam Respublikasının Cənubi Qafqaz Respublikaları ilə əlaqələrinin yenidən bərpa edilməsi və inkişaf etdirilməsi üçün müəyyən edilmiş ən düzgün və səmərəli strategiyadır.

Nəhayət, sülh müqaviləsinin imzalanması Ermənistan Respublikasının düçar olduğu dərin siyasi-iqtisadi və mənəvi böhranın burulğanından xilasının ən əlverişli və alternativsiz yoludur. Son aylarda Ermənistanın Sülh müqaviləsinə doğru addımlar atmaq əvəzinə ölkəmizin sərhədlərində atəşkəs rejimini pozması, müxtəlif təxribatlar törətməsi bu ölkədə hələ də ağılın deyil, eyforiyanın hökm sürməsinin əlamətləridir. Ermənistan Respublikasının rəhbərliyinin Sülh müqaviləsindən qaçması onsuz da bədbəxt günə salınmış erməni xalqının daha dərin uçuruma doğru sürükləndirilməsi deməkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəllifi olduğu Sülh müqaviləsi təklifi isə regionda möhkəm və etibarlı sabitliyin təmin edilməsinə, yeni nəqliyyat-kommunikasiya qovşaqlarının yaradılmasına, iqtisadi əlaqələrin genişləndirilməsinə, qarşılıqlı inteqrasiya proseslərinin qurulmasına təminat verən real birgə əməkdaşlıq platformasıdır.

Azərbaycanın təklif etdiyi və uğrunda mübarizə apardığı Zəngəzur dəhlizi Avropa ilə Asiyanı əlaqələndirən yeni beynəlxalq nəqliyyat qovşağının yaradılmasına xidmət edir. Bu, eyni zamanda, Ermənistan üçün də region ölkələri və dünya dövlətləri ilə əlaqələr qurmaq baxımından ən münasib çıxış yoludur. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının da blokadadan çıxarılması və ölkəmizin əsas hissəsindəki rayonlarla birbaşa əlaqələrinin yaradılması üçün də Zəngəzur dəhlizi çox əhəmiyyətli və əlverişli vasitədir. Nəticə etibarilə Zəngəzur dəhlizi məsələsinin həlli Azərbaycanın irəli sürdüyü Ermənistan Respublikası ilə Böyük Sülh Sazişinin müddəaları ilə bir-birini tamamlayır.

Prezident İlham Əliyevin Sülh Sazişi ideyası Böyük Qayıdışın fəlsəfəsini, reallığın və gələcək perspektivlərini əhatə edən uzaqgörən bir parlaq gələcək strategiyadır.

Azərbaycan xalqı ürəkdən inanır ki, xalqımıza tarixi Zəfər qazandıran Prezident İlham Əliyev ölkəmizdə sülhüm, əmin-amanlığın, yüksək rifahın və böyük inkişafın bundan sonra da davamlı şəkildə təmin edilməsinin daha parlaq nümunələrini göstərəcəkdir.

Regionda sülhün və əməkdaşlığın təmin edilməsi, Ermənistanın böhrandan xilas olması Sülh sazişi imzalanmadan həyata keçirilə bilməz. Bütün bunlara görə Sülh sazişi təklifi Böyük Qayıdışın reallığı və böyük çağırışıdır.

# Bir cinayətkarın mitinq həyasızlığı...

## *Eynulla Fətullayev: “Əli Kərimli müxalifət düşərgəsinin tülküsüdür”*



**Bir “siyasətçi”nin ki tərcümeyi-halında bu qədər qara ləkələr olsun, onun yenidən mitinq iddiasına düşməsini ancaq həyasızlıq adlandırmaq olar. Bunu müxalif düşərgədə baş verən hadisələr də bir daha sübut edir. Belə ki, özünü “müxalifətin lideri” kimi təqdim edən və cinayətlər içində çapalayan Əli Kərimli yenidən sosial şəbəkələrdən “çıxış yolu mitinqdir” deməsi həyasızlıqdan başqa bir şey deyil. Ancaq Əli Kərimli kimilər bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin yalı ilə bəslənənləri tarix heç vaxt bağışlanmır. Bu yerdə jurnalist Eynulla Fətullayevin dediyi söz lap yerində deyilib: “Əli Kərimli müxalifət düşərgəsinin tülküsüdür. Bütün tülkü və xəyanətkar siyasəti ilə”.**

Bu gün bu tülkü siyasətçi, cinayətkar Ə.Kərimli ilə bağlı xarici qüvvələrin göndərdiyi maliyyə ilə ölkədə təxribatlar törətmək istəyi faktları sübuta yetirildiyi bir halda utanmadan mitinq iddiasına düşməsi bir daha AXCP sədrinin erməniliyini və tülkülüyünü təsdiqləyir: “AXCP sədri heç vaxt adam olmayıb, olmayacaq da. Cinayətkar, əxlaqsız, erməni nökəri Əli Kərimlinin “bəlkə də qaytardılar” xülyası bir daha baş tutmayacaq. Bunu bilə-bilə mitinqdən başqa siyasi mübarizə üsulu tanımır. Bir dənə sözləri var ki, hakimiyyətə gələk. O da heç vaxt olmayacaq”. Və Azərbaycanın bu uğurlardan qısqanclıq hissi keçirən, hətta alışıb -yanan Əli Kərimli kimi əxlaqsız və satqınlar antiazərbaycan qüvvələrin əlində alətə çevrilərək onların çirkli pulları hesabına ölkə daxilində qarşıdurma, hakimiyyətə xalq arasında süni narazılıqlar yaratmağa cəhd edir, ikrah doğuran vasitələrlə respublikamızın getdikcə artan reytinqinə xələl gətirmək istəyirlər. Təbii ki, belə xəyanətkarlar öz məkrli niyyətlərinə nail ola bilmirlər. Çünki xalq, xüsusilə gənc nəsil ölkəmizdə demokratik proseslərin inkişafını yüksək dəyərləndirir və bu şəraiti yaradan, Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirən Azərbaycan dövlət başçısının siyasi xəttini dəstəklədiklərini bəyan edirlər. Milli maraqlardan millilikdən uzaq olan xəyanətkar qüvvələrin çağırışlarına isə məhəl qoyan yoxdur. Çünki artıq müxalifətin, eyni zamanda Əli Kərimlinin iç üzü, xəbis niyyətləri və ermənipərəst qüvvələrin çaldığı havaya oynaması hamıya məlumdur və bu cəhdləri iflasa uğrayır. Çünki xalq, yetişən gənc nəsil milli maraqlardan, millilikdən uzaq olan müxalifətə birdəfəlik “yox” deyib.

### Əli Kərimli, döyüşçülər satqınları sevməzlər!

Ən əsası isə, satqın Əli Kərimli indi də həyasızcasına sosial şəbəkələrdə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri adından istifadə edib siyasi divident qazanmağa çalışmaq istəyir. Ancaq belə bir söz də var: “Sən saydığını say, gör fələk nə sayır”. Belə ki, Qarabağ müharibəsi əlilləri üzərindən antitəbliğata cəhd edən AXCP sədri böyük təpkilərlə qarşılanıb və tülkü “siyasətçinin” planlarını alt-üst olub. Belə ki, Əli Kərimli Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və veteranları adından istifadə edərək guya ki, bu kateqoriyadan olan insanlara cəmiyyətimizdə biganə münasibət olduğunu bildirir. Lakin hər zamankı kimi, bu dəfə də sosial şəbəkə istifadəçiləri, xüsusilə gənclər Əli Kərimliyə və onun trollarına sözlərini dedilər və antitəbliğat kampaniyasını iflasa uğratdılar.

### Gənclərdən “Əli Kərimli kimi satqınların cavabı verilməlidir” çağırışı

Ramil Vəlibəyov adlı sosial şəbəkə istifadəçisi status paylaşaraq yazıb ki, Qarabağ müharibəsi xalqımızın ən ağrılı yarasıdır. Bu müharibədə şəhid olan, yaralanan, əlil qalan insanlar isə qürurumuz, cəmiyyətimizin həssas üzvləridir. Hansısa toplantıda, yaxud məclisdə içəri bu kateqoriyadan olan insan daxil olarsa qeyri-ixtiyari gənclər və digərləri ayağa qalxırlar, onlara yer verirlər. Çünki bu, Azərbaycan xalqının mənəvi-əxlaqi keyfiyyətlərindən irəli gələn məsələdir: “Lakin çox təəssüflər olsun ki, bu gün bəzi antimilli ünsürlər, radikal müxalifət nümayəndələri, xüsusilə də AXCP sədri Əli Kərimli bu kateqoriyadan olan insanların problemlərini öz maraqlarına uyğun şəkildə qabartmaqla, siyasiləşdirməklə həm ictimaiyyət arasında çaşqınlıq yaratmağa, həm bu kateqoriyadan olan insanlarla dövlət arasındakı münasibətlərə kölgə salmağa, həm də sosiumda Qarabağ müharibəsi ilə bağlı fikirlərə mənfi psixoloji nöqteyi-nəzərdən qiymətin verilməsinə cəhd göstərir. Düşünürəm ki, bundan sonra heç kəs susmamalıdır. Nəinki gənclər, hətta Qarabağ müharibəsi əlilləri, şəhid ailələri susmamalı, Əli Kərimli kimi satqınların cavabını verməlidir ki, bir daha o bu kateqoriyadan olan insanların heysiyyatına toxunmasın, onların adından istifadə etməsin”.

Bu statusun paylaşımından sonra münasibətini ortaya qoyan digər gənclər Əli Kərimlinin antitəbliğat kampaniyasını pislədilər. Məsələn, Sevinc Abdullayeva qeyd edib ki, Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin adından danışmaq Əli Kərimliyə düşməz: “Çünki bu satqının təmsil olunduğu hakimiyyətin sayəsində ermənilər torpaqlarımızı işğal etdilər, Qarabağ boyda dərdi bizim üçün yaratdılar. Ar olsun...”. Azərin Rəşidova adlı istifadəçi yazıb ki, bu antimilli ünsür üçün Vətən, dövlət və xalq anlayışı yoxdur: “Onun üçün əsas xaricdən gələn qrantlar və ölkəmizdə qarışıqlığın yaradılmasıdır. Sənin nə işin var Qarabağ müharibəsi əlilləri və şəhid ailələri ilə? Onsuz da bu ölkəyə çox zərbələr vurmusan”.

Ayan Cəfərova adlı sosial şəbəkə istifadəçisi də maraqlı fikirlə çıxış edib: “1992-ci ildə Qarabağda müharibə gedərkən Əli Kərimli kimilər silahlı adamlarını, zirehli hərbi maşınlarını Bakıda Ali Sovetin binasını tutmağa yönləndirmişdi. Tarixi yaddaşımız yerindədir, ey satqınlar. Gənclərimiz Vətəni qoruyarkən siz Bakıda kreslo üstündə “döyüşürdünüz”. “Əli Kərimlinin bu təbəqədən olan insanların adını anmağa belə haqqı yoxdur” - deyən Lamiyə Rövşənqızı qeyd edib ki, dövlətimiz hər bir vətəndaşının arxasındadır. Bu günədək müharibə adamlarına hansı qayğı göstərilibsə, bundan sonra da o qayğı göstəriləcək. Əlbəttə ki, davam edən müzakirəyə müharibə iştirakçıları, veteranları, əlilləri və şəhid ailələri də öz münasibətlərini bildiriblər.

Bir sözlə, cəmiyyətimizin həssas təbəqəsi olan Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və veteranları adından istifadə edərək antitəbliğat aparmağa cəhd edən Əli Kərimlini elə bu kateqoriyadan olan insanlar, Vətənini sevən gənclər peşman etdilər. Sosial şəbəkələrdən istifadə edən ictimaiyyət nümayəndələri bu dəfə də dövlətin yanında olduqlarını, cənab Prezident İlham Əliyevin siyasətini dəstəklədiklərini sübut etdilər. Bu fakt özlüyündə bir daha həm cinayətkar və satqın Əli Kərimli kimi radikal müxalifət, həm də onlara himayədarlıq edən antiazərbaycan dairələri üçün şillə kimi cavab oldu.Və ölkəmizin başçısının mütəmadi olaraq hərbçilərin sosial vəziyyəti ilə bağlı imzaladığı sərəncamlar bu ünsürlərin bəd niyyətlərini alt-üst edir və bundan sonra da edəcək. Və tarixin zibilliklərinə atılan Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Xədicə İsmayılova, Qənimət Zahid, Leyla Yunus, Vidadi İskəndərli... kimilər bilməlidirlər ki, xalq üçün radikal müxalifət deyilən bir “varlıq” mövcud deyil! Çünki əsl həqiqət o bayraqda və onu oraya sancan vətənpərvərlərdədir!

Prezident İlham Əliyevin dediyi kimi: “Heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz!”. Bəli, xalqımız öz müdrikliyi ilə bundan sonra da dövlətimizin başçısının ətrafında sıx birləşəcək.

***Rəfiqə HÜSEYNOVA***

# İctimai və dövlət maraqlarının qorunması əsas vəzifələrdəndir



**Ölkəmizdə ictimai və dövlət maraqlarının müdafiəsi, məhz həyata keçirilən uğurlu siyasət sayəsində təmin edilir. Nəzərə alsaq ki, ictimai və dövlət maraqlarının müdafiəsi sözün əsl mənasında həyati əhəmiyyət kəsb edir, deməli, bu məsələ daim öz aktuallığını qoruyur. Bu baxımdan hər bir cəmiyyətin başlıca məqsədlərindən biri kimi ictimai və dövlət maraqlarının müdafiəsi ölkəmizdə əsas vəzifələrdən bir hesab olunur.**

Cəmiyyəti təşkil edən fərdlərin birgə marağında olan məsələlər, ümumilikdə, çoxluğun maraqları ictimai maraqlardır və bu maraqların tanınması, təbliği və müdafiəsi hökumət tərəfindən sığortalanır, qorunur. İctimai maraqlar dövlət-vətəndaş münasibətlərinə birbaşa təsir imkanlarına malikdir və məhz bu baxımdan dövlət tərəfindən tənzimlənir və hətta müdafiə edilir. Eyni zamanda, ictimai maraqların müdafiəsini müxtəlif ictimai birliklər, qeyri-hökumət təşkilatları hüquqi imkanlarla gerçəkləşdirə bilər.

Azərbaycan bəşəri və milli dəyərləri nəzərə alan, qoruyan və geniş miqyasda təbliğ edən ölkədir və bu baxımdan ictimai və milli maraqların təmin olunması ölkəmizdə prioritet məsələlərdən hesab olunur. Azərbaycan xalqının dəyərləri, insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatları ictimai və milli maraqlar məcmusudur. Azərbaycan cəmiyyəti yetkin bir cəmiyyətdir, ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edir, eləcə də bu mövqeyi ictimai, siyasi münasibətlərdə və dövlətlə əlaqələrində nümayiş etdirməyi bacarır. Məhz ideal cəmiyyətin formalaşması üçün həm dövlətin mənafeyinə zərər gəlməməsi, həm ictimai maraqların təmin edilməsi, həm də ortaq maraqların müəyyənləşdirilməsi tələb olunur ki, ölkəmizdə belə bir mühitin formalaşdığının hər kəs şahididir.

Ölkə başçısı cənab Prezident İlham Əliyevin, "Bizim siyasətimizin təməlində dövlət maraqları, xalqla iqtidar arasında birlik dayanır" fikirləri də təsdiq edir ki, Azərbaycanda dövlət və cəmiyyət maraqlarının mükəmməl vəhdəti mövcuddur və bu siyasət Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasına əsaslanır. Məhz bu ideologiya sayəsində də milli dövlət maraqları ilə ümummilli maraqlar üst-üstə düşür ki, bu da dövlətin suverenliyinin daha da möhkəmlənməsi deməkdir.

Əlbəttə ki, cəmiyyətlə dövləti birləşdirən qırılmaz bağlar var və bu danılmazdır. Əgər cəmiyyət ayrı-ayrı fərdləri özündə birləşdirərək, sonunda böyük bir toplum kimi çıxış edirsə, dövlət də bu toplumu bir araya gətirməklə bir növ, himayəçilik missiyasını öz üzərinə götürür və bu baxımdan cəmiyyət və dövlətin bir-birindən ayrı mövcud olması mümkünsüzdür. Əks halda mütərəqqi inkişafdan söhbət belə gedə bilməz və məhz mütərəqqi inkişafa ictimai maraqla dövlətin maraqlarının üst-üstə düşməsi nəticəsində nail olmaq olar.

Azərbaycan dövləti ictimai marağın müdafiəçisi kimi çıxış edir və məhz bu səbəbdən də cəmiyyətin bütün qruplarının marağında olan məsələlərin həllinə nail olur. İstər cəmiyyətin rifah halının yüksəlməsi, yaşayış və fəaliyyət şəraitinin yaxşılaşdırılması olsun, istərsə də keçirilən islahatlar olsun, ümumilikdə dövlətimizin atdığı bütün addımlar, yürütdüyü siyasət ölkəmizdə ictimai marağın qorunduğunu təsdiqləyir. Eyni zamanda, bütün bunlar ondan xəbər verir ki, ictimai və dövlət maraqları üst-üstə düşür. Məhz son zamanlar keçirilən islahatlar, əldə edilən uğurlar, qazanılan nailiyyətlər, xüsusilə, 44 günlük müharibədə qazanılan möhtəşəm qələbə, erməni separatçılarının qanunsuz olaraq 30 il işğal altında saxladıqları torpaqların işğaldan azad edilərək geri qaytarılması, həmin ərazilərdə intensiv quruculuq, abadlıq işlərinin görülməsi, infrastruktur layihələrinin gerçəkləşdirilməsi, "Böyük Qayıdış" kimi ictimai və dövlət marağının təmin edilməsi istiqamətində atılan əməli addımlar ictimai və dövlət maraqlarının üst-üstə düşdüyünü təsdiq edir. Eyni zamanda onu təsdiq edir ki, ölkəmizdə sözün əsl mənasında, ictimai və dövlət maraqlarının qorunması əsas, ən ümdə vəzifələrdəndir.

Dövlətimizin ictimai maraqların təminatçısı rolunda çıxış etməsi ölkəmizdə təhsil, səhiyyə, gənclər, idman siyasətində də keçirilən islahatlardan aydın şəkildə görünür. Bunu eləcə də, vətəndaş cəmiyyəti institutlarının, kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin verilməsi kimi ictimai maraqların təmin edilməsində də görmək mümkündür. İctimai və dövlət maraqlarının müdafiəsi müstəqil, azad, inkişaf etmiş, sabit, təhlükəsiz bir ölkədə yaşamaq deməkdir və məhz bu baxımdan da ölkə vətəndaşları, cəmiyyət üzvləri üçün böyük məna kəsb edir, əhəmiyyət daşıyır, hətta, bütün vətəndaşların belə mənəvi borcu sayılır.

İctimai və dövlət maraqlarının müdafiəsində, eləcə də qorunmasında "cəmiyyətin güzgüsü" hesab edilən mətbuat nümayəndələri də yaxından iştirak edir. Əlbəttə ki, mətbuat milli maraqların müdafiəsində dövlətin və vətəndaşın müdafiəçisi rolunda çıxış etməli olur, çünki qlobal informasiya məkanında ölkənin təhlükəsizliyi naminə ictimai və dövlət maraqlarının qorunması zəruridir. Heç şübhəsiz ki, dövlət və hərbi sirr kateqoriyasına aid məlumatlar, dövlətçiliyə, onun təhlükəsizliyinə, müstəqilliyinə təhdid xarakterli, cəmiyyətdə təhlükəli tendensiyaya yol açan informasiya yayımlanmamalı, eləcə də, cəmiyyətdə sosial, dini, irqi ayrı-seçkiliyi, cinayətkarlıq, terrorçuluq, hərbi qarşıdurma təbliğ edilməməli, ölkənin informasiya sahəsində əsas milli maraqlarını təmin edən məlumatlar qanuni yolla əldə edilməli, hazırlanmalı və yayımlanmalıdır. Bir sözlə, "cəmiyyətin aynası", mətbuat, ümummilli maraqları qorumalı, həm ictimai maraqların üzə çıxarılmasında, həm də informasiya məkanındakı savaşda dövlətin müdafiəçisi rolunda çıxış etməlidir. Daha dəqiq desək, ictimai və dövlət maraqlarının qorunmasında yalnız dövlət və vətəndaş cəmiyyətləri deyil, xüsusilə media orqanları da fəal iştirak etməlidirlər.

Xüsusilə qeyd etmək yerinə düşərdi ki, ictimai və dövlət maraqları hər bir cəmiyyət üçün, hər zaman mühüm, müstəsna əhəmiyyət kəsb edir. Məhz bu baxımdan da ictimai və dövlət maraqlarının müdafiəsi hər zaman, hər yerdə öz aktuallığını qoruyur. Bəli, elə buna görə də bu vəzifələr, ictimai və dövlət maraqlarının qorunması əsas vəzifələrdəndir.

***İnam Hacıyev***

# "Hazırda ən böyük rəqibimiz zamandır"

## POLİTOLOQ AÇIQLADI



**"Əvvəla 44 günlük müharibədə Ali Baş Komandanın rəhbərliyi altında necə uğurlu taktika seçilmişdisə, müharibədən sonra da cənab Prezidentin rəhbərliyi altında bir o qədər uğurlu qayıdış taktikası seçilib. Yeni qurulacaq Qarabağda artıq ağıllı kənd, ağıllı şəhər layihələri gündəmdədir. Cənab Prezident birinci olaraq, infrastrukturların qurulmasından başladı. Yəni, bir növ Qarabağı bütün dünyaya təqdim etmək məsələsi gündəmə gəldi. Artıq qısa müddət ərzində Füzuli hava limanı istifadəyə verildi. Bu, Azərbaycanın böyük bir uğurudur". Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.**

Onun sözlərinə görə, Qarabağın mərkəzində belə bir hava limanının tikilməsi Azərbaycanın hərbi-iqtisadi qüvvəsini göstərir. Artıq Zəngilanda hava limanı tikintisinə başlanıb. Laçın ərazisində də belə bir addım atılacaq. Amma əsas burada infrastrukturun yaradılması idi. Cənab Prezident bu işləri mərhələli şəkildə həyata keçirdi. Əvvəlcə, paralel olaraq işıq məsələsi, su məsələsi həll olundu. Etiraf olunmalıdır ki, "Azərişıq" kimi dövlət qurumları orada çox müsbət işlər görüb. "Azərsu" da artıq fəaliyyətə başlayıb. Şuşa su təminatı ilə təchiz olunub. Bu qurumların içərisində ən yüksək səviyyədə özünü göstərən Avtomobil Yolları Dövlət Agentliyidir, yəni bu agentlik bütün istiqamətlərdə, ancaq tərifəlayiq işlərlə məşğuldur. Qısa bir zaman kəsiyində, artıq Zəfər yolu başa çatmaq üzrədir. Şuşa üçün ikinci yol çəkilir. Ən ciddi yol da Toğanadan Kəlbəcərə çəkilən yoldur. Bundan başqa cənab Prezidentin göstərişi ilə, artıq Ağdam şəhərinin yenidən qurulması layihəsi hazırlanıb. Bu dünya standartları çapında olan bir layihədir. Artıq onun tikintisi də başlayıb. Şuşanın bərpası layihəsi hazırdır. Ermənilər, demək olar ki, Şuşada 70 faiz milli-mədəni irsi məhv etmişdilər. Həm cənab Prezident İlham Əliyevin, həm də Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın birgə fəaliyyəti çox uğurlu nəticələndi.

Cənab Prezidentin və Mehriban xanımın işğaldan azad edilmiş ərazilərə birgə səfərləri Azərbaycan üçün motivasiya, çox böyük sinergetika yaratdı. Dövlət başçısının özünün şəxsən səfər etməsi gələcəkdə ora köçəcək bütün insanlar üçün bir motivasiya verdi ki, yəni burada heç bir təhlükə yoxdur. Hər şey Azərbaycanın və mənim nəzarətim altındadır. Bundan sonra geri qayıtmaq istəyənlər də kiyafət qədərdir. İnanıram ki, ilin axırına qədər Cəbrayılda ağıllı kənd layihəsi başa çatdırılacaq. Ora insanlar köçəcək. İnfrastrukturla bərabər artıq kənd təsərrüfatı ilə bağlı da işlər görülür. Burada əkin-biçin məsələləri gündəmə gəlir. Suvarma məsələləri həll olunub. Azərbaycanın ən məhsuldar əkin sahələri məhz işğal altında qalmış rayonlarda idi. Azərbaycan vaxtdan yararlandı. Əkin sahələri minalardan təmizləndi. Daha bir uğurlu addım Ağdam şəhərinin tamamilə minadan təmizlənməsi ilə bağlı ANAMA-nın elanıdır. Azərbaycan Prezidenti "Böyük Qayıdış" planına uyğun olaraq çox güclü, həm də informasiya müharibəsi apardı. Eyni zananda təbliğat və təşviqatı da yüksək səviyyədə həyata keçirdi. Artıq bir neçə dövlətin, qardaş Türkiyənin, Çinin, İsrailin, Rusiyanın burada təşkilatı İtaliyanın və digər ölkələrin müxtəlif özəl və dövlət qurumları Azərbaycan ərazisində iş görmək istəyir. Bu siyahı getdikcə artmaqdadır. Prezident tərəfindən həyata keçirilən investisiyanın cəlb olunma siyasəti də çox uğurla həyata keçirilir. Mən inanıram ki, Azərbaycan bu qayıdış planı ilə yeni ikinci bir zəfəri çalacaq. Müharibədən sonra qayıdış planı çox uğurlu hazırlanıb. Taktika strateji cəhətdən düzgün seçilib. Amma bir qədər zaman lazımdır. Düzdür, biz bir xalq olaraq zamanı sevmirik və hər şeyin o dəqiqə olmasını istəyirik. Bəzi özünü müxalifət hesab edənlər fikirləşirlər ki, bunlar bunu 5 aya yox, bir aya edərlər, amma bu ağılsızlıqdır. Belə şeylərə fikir vermək lazım deyil. Hazırda ən böyük rəqibimiz zamandır. Zamanla da mübarizə aparmaq üçün səbr lazımdır. Düşünürəm ki, biz bu səbiri əldə edəcəyik.

Bizim Qarabağa qayıdışımız möhtəşəm olacaq. Bu haqda Cümşüd Nuriyev fikrini belə izah edib: "Çünki bizim qələbəmiz də Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında çox möhtəşəm idi. Qayıdışımız da, Azərbaycan Respublikasının Ali Baş Komandanın rəhbərliyi altında möhtəşəm olacaq. Buna inanıram. Bir məsələni də qeyd edim ki, məhz, Azərbaycan Prezidentinin Qarabağda qazandığı müharibə sülhün bərqərar olması eyni zamanda, yürütdüyü multikulturalizm siyasəti, dini konvensesiyalara olan müsbət münasibətlə bağlı mən, təklif edirəm ki, Azərbaycan mediası məsələ qaldırsın. Xüsusilə, İlham Əliyevi cənubi Qafqazda sülhü bərqərar etdiyinə görə, multikulturalizm ideyalarının təbliğatı, dini konvensasiyalara belə bir münasibət yaratdığına görə Nobel mükafatına təqdim etmək lazımdır".

***Turqay Musayev***



# "Hərbi təlimlər ermənilər üçün ciddi siqnal olmalıdır"



"Azərbaycan-Türkiyə münasibətləri strateji müttəfiq münasibətləridir və tarixi Şuşa bəyannaməsinin imzalanması ilə münasibətlərimiz özünün ən yüksək səviyyəsinə çatıb. Onlar bir-birinə istənilən dəstəyi, istənilən yardımı, eyni zamanda hərbi dəstəyi həyata keçirmək hüququna malikdirlər". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib.

Deputat bildirib ki, məsələyə bu kontekstdə yanaşdıqda heç şübhəsiz ki, iki dövlətin hərbi qüvvələri arasında birgə təlimlərin həyata keçirilməsi məntiqidir: "Və bu münasibətlərimizin səviyyəsindən irəli gələn addımdır. Bu ilin yay mövsümü





ərzində bir neçə çox əhəmiyyətli birgə hərbi təlimlər keçirilib. Sentyabr ayının 17-nə qədər Konya şəhərində Azərbaycan və Türkiyə hərbi hava qüvvələrinin təlimləri keçirilir. Bundan bir qədər öncə iyul ayının əvvəllərində də Azərbaycan, Türkiyə, Pakistan və Qətərin birgə hərbi təlimləri keçirilib. Bu onu göstərir ki, bizim hərbi sahədə əməkdaşlığımız qardaş Türkiyə dövləti ilə yanaşı, qardaş Pakistan və Qətəri əhatə etməkdədir".

E.Nəsirov vurğulayıb ki, Konya ilə yanaşı Laçında da Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilir: "Bunun da çox böyük siyasi və hərbi əhəmiyyəti var. Düşmən görür ki, əgər onlar törətdikləri təxribatlara son qoymazlarsa, Laçın dəhlizi vasitəsilə qeyri-qanuni olaraq hərbi yüklərin daşınması və həmin ərazilərə erməni əsgərlərinin yerləşdirilməsi prosesi dayanmazsa, hadisələr onlar üçün ən arzuolunmaz istiqamətdə inkişaf edə bilər. Ali Baş Komandan cənab İlham Əliyevin də qeyd etdiyi kimi dəmir yumruq yerindədir. Laçında keçirilən hərbi təlimlər düşmən üçün çox ciddi siqnal olmalıdır ki, özlərini yığışdırsınlar. Əks təqdirdə dəmir yumruq işə salınmış olacaq. Bu isə Ermənistan üçün hansı növbəti acınacaqlı sürprizlərin olacağını proqnozlaşdırmaq elə də çətin deyil".

***Aysel Məmmədova***



## Uşaqlarda yuxusuzluğun səbəbləri

### BƏLLİ OLDU - PSİXOLOQ AÇIQLADI

***"Uşaqlarda yuxu problemləri müxtəlif səbəblərdən ola bilər. Bura günlük yığılan stress, ailədaxili münaqişələr, uşaqla rəftar, valideynlərin münasibətləri ola bilər ki, bu da axşam uşaqlarda narahatçılıq yaradır". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı deyib. Onun sözlərinə görə, bir tərəfdən də rejimsizlik uşaqlarda narahatçılıq yarada bilər: "Valideyn çox vaxt fikirləşir ki, "uşaq niyə yatmır?". Ana gün ərzində, axşam yuxusuna yaxın vaxtlarda uşağı yatızdırır və uşaq artıq yuxusunu almış şəkildə oyanır və ikinci axşam yuxusunu ona görə gecikdirir".***

Psixoloq sözlərinə belə davam edib: "Bağırsaq çöpləri, qurdlar da uşağın narahatlığına, sinir sisteminə təsir göstərə bilər. Ona görə də yuxusuzluğun bilavasitə bir növ səbəbi yoxdur. Həm psixoloji, həm fizioloji səbəblər ola bilər. Ona görə də bunlar araşdırmalıdır".

"Dediyim kimi, lazım olsa, bağırsaqdan da analiz vermək lazımdır və uşağın günlük rejimi diqqətə alınmalıdır ki, "uşaq günlük rejimdə niyə yatmır?". Yəni, "yuxusuzluğa səbəb nədir?". Nəzərə alın ki, insanın yuxusuz qalması mümkün deyil. Mütləq hardasa yatır. Çox vaxt yaşlı adamlar deyir ki, yatmıram, amma onlar da gündüzlər yatır. Uşağın rejiminin pozulmağına, psixoloji faktorlar var ki, sinir sisteminin pozğunluğuna yuxusuzluq səbəb ola bilər".

***Ayşən Vəli***

# "Saman altından su yeridən" ermənilər və ermənipərəstlər

Vaxtilə sonuncu sovet fironu Mixail Qorbaçovun hakimiyyətə gəlişi ilə onun ətrafına topladığı ermənilər və ermənipərəst qüvvələr dərhal hərəkətə keçərək çoxdan ürəklərində gizlin saxladıqları saxta "böyük Ermənistan" ideyasını reallaşdırmaq üçün üzə çıxdılar. Qarabağ münaqişəsinin alovlanmasından qabaq bir sıra tanınmış erməni "ziyalılar" Qarabağın Ermənistana birləşdirilməli olduğunu ABŞ- da və Avropada fəaliyyət göstərən erməni mətbuatında bildirdilər. Bunların sırasında Zori Balayanın, Silva Kaputikiyanın, Serqey Mikoyanın (Anastas Mikoyanın oğlu) və onlarla başqalarının adlarını göstərmək olar.

1987-ci il noyabrın 16-də Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqambekyan Parisdə nəşr olunan "L'Humanite" qəzetinə müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsi ilə əlaqədar Qorbaçovu razı saldığını bildirdi. Ermənilər M.Qorbaçova erməniperəst arvadı vasitəsilə təsir edirdilər. 1988-ci ilin fevralında M.Qorbaçov ilə bu mövzuda ilk rəsmi görüşə gedənlər Zori Balayan və Silva Kaputikyan oldular.

Onların ikisi də Azərbaycan xalqına qatı düşmən olduqlarını rəsmi, qeyri-rəsmi çıxışlarında da gizlətmirdilər. Zori Balayan isə özünün də etiraf etdiyi kimi, türklərə qarşı bir çox vandal fikirlərin və əməllərin müəllifidir. O, Xocalı qətliamının qatillərindəndir, bütün mətnləri irqçi, faşist ideyalarla, Azərbaycan türk-



lərinə qarşı soyqırımı təklifləri ilə zəngindir.

Qarabağ münaqişəsində fəallığına görə 2006-cı ildə Z. Balayana "Artsaxın qəhrəmanı" fəxri adı veriləndə ona Şuşa şəhərində təmtəraqlı təltif mərasimi keçirilmişdi...

Sən demə, 85 yaşlı uşaq qatili ötən ilin sentyabr ayının sonlarında Şuşaya, erməni ordusuna ideoloji təlim və mənəvi dəstək verməyə gəlibmiş. Lakin zavallı və saxta "qəhrəman" rəşadətli Azərbaycan Ordusunun Zəfər yürüşündən qorxuya düşüb Şuşadan birbaşa İrəvana qaçıb. O vaxtdan bəri irqçi, faşist Zori Balayanın dəfələrlə ölüm xəbəri yayılsa da, 86 yaşlı Zori hələ gəbərməyib. Sadəcə, övladlarını qırğına verdiyi erməni analarına daha deməyə sözü yoxdur!..

Hər fürsətdə erməni təbliğatı aparan və bunu əsasən ABŞ-ın xarici siyasətində əhəmiyyətli yer tutan Hollivudda gerçəkləşdirən erməni əsilli porno-ulduz Kim Kardaşyanın da səsi "batıb." Qəribə olsa da bu gün dünyada bir çox məşhurların "ermənilıyi" məhz analarının erməni olması ilə izah edilir. Hətta , Xankəndidə qondarma "dqr" rejiminin təsis etdiyi "Anaların minnətdarlığı" medalı ilə əslində, ataları digər xalqların nümayəndələri, anaları isə etnik erməni olanlar təltif edilirdi. Bu mükafatı alanlar arasında Ermənistanın sabiq müdafiə naziri, anası erməni olan Seyran Ohanyan da var... Rəsmi məlumata görə, onun atasının azərbaycanlı olduğu və 1961-ci ildə Şuşada anası Aida Ohanyanla ailə həyatı qurduğu, 1969-cu ildə isə ayrıldığı bildirilir.

44 günlük Vətən müharibəsində erməniperəstliyini nümayiş etdirən məşhurlardan biri də çox təəssüflər ki, Azərbaycanda çoxsaylı oxucusu olan və Fransanın Strasburq şəhərində doğulmuş məşhur türk yazıçısı Elif Şafak oldu. O, şəxsi "Twitter" hesabından Ermənistana dəstək məqsədli paylaşım edərək erməni müğənni Simon Mağakyanın Şuşa kilsəsindəki ifasını təqdir etmiş və HDP-nin erməni əsilli deputatına təşəkkürünü bildirmişdi.

Yeri gəlmişkən, onun ingilis dilində qələmə aldığı və 2006-cı ildə nəşr olunan "Ata və bic" ("Baba ve Piç") romanı Türkiyədə böyük səs-küyə səbəb olmuşdur. Əsərdə biri türk, o biri isə erməni əsilli iki ailədən bəhs edən müəllifə "Türklüyü təhqir etmə" maddəsi ilə cinayət işi açıldı. Lakin o zaman kifayət qədər dəlil tapılmadığına görə Elif Şafak bəraət aldı.

Ötən ilin noyabrında Fransanın məşhur "Le Figaro" nəşri Qarabağdakı erməni separatçılığını açıq şəkildə dəstəkləyən, yalan, böhtan və nifrət üzərində hazırlanmış müraciəti imzalayan fransız rejissorların, yazıçıların, filosofların, aktyorların, musiqiçilərin, jurnalistlərin, müğənnilərin siyahısını yayımlamışdı. Erməniləri dəstəkləyənlər arasında Pyer Rişar, Jan Reno, Jülyet Binoş, Jan Düjarden, Alen Delon, Klod Leluş, Klaudiya Kardinale kimi şəxslərin adları vardı.

Bu gün Rusiyada bütün məşhur filmlərdə, teleaparıcılar, parodiyaçılar arasında ermənilər və erməniperəstlər çoxluq təşkil edir. Bəzən rus dedektiv seriallarının, hətta 1941- 1945 -ci ilin müharibəsindən bəhs edən (müasir dövrdə çəkilən) filmlərin qəhrəmanlarının çoxu da ermənilər olur. Belə çıxır ki, alman faşizmi üzərində qələbədə o zaman SSRİ-də yaşayan başqa millətlərin deyil, yalnız ermənilərin payı olub...

Erməniperəst ssenari müəllifləri və rejissorlar bir dəfə də olsun Hitler Almaniyası üzərində qələbədə misilsiz rol oynayan Azərbaycan neftindən, nə də xalqından bəhs etməyiblər.

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Rusiya hər zaman ölkələrimizin bir-biri ilə səmimi dostluq, mehriban qonşuluq münasibətlərindən, bərabərhüquqlu dövlətlər səviyyəsində əməkdaşlıq etdiklərindən ağızdolusu bəhs edir. Əgər gerçəkdən Rusiya dövləti Azərbaycanla səmimi dostluq, mehriban qonşuluq, bərabərhüquqlu dövlətlər səviyyəsində əlaqələrini qurubsa o zaman bunu sözdə deyil, əməldə sübut etməlidir. Çox təəssüflər olsun ki, bu gün Qarabağda yerləşən rus sülhməramlı qüvvələri öz imkanlarından istifadə edib bölgədə sülhü, sabitliyi bərqərar etməklə dünyaya özünü sülhsevər bir dövlət kimi təqdim etmək əvəzinə, fəaliyyətində bunun əksini nümayiş etdirir. "Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir" deyən Rusiya dövləti sülhməramlılarının Qarabağda beynəlxalq hüquq normalarına əməl etməmələri və açıq-saçıq erməniperəst mövqe tutmaları yolverilməzdir.

***Nurəddin Muğanlı***

# Qarabağ bölgəsinin yüksəlişinin təminatçısı - Qalib Lider



Ötən il Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı uğurla yekunlaşandan sonra xalqımız və dövlətimizin qarşısında yeni məsul vəzifə dayandı. Bu, işğaldan azad edilmiş tarixi və əzəli torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, yenidən Qarabağa həyatın qaytarılmasıdır. Artıq 44 günlük qələbəmizdən 7-8 ay keçməsinə baxmayaraq bu istiqamətdə genişmiqyaslı işlər görülür, əcnəbi şirkətlərlə birgə yeni iqtisadi, quruculuq layihələri hazırlanır, hətta infrastrukturun bərpası ilə bağlı bir çox ilkin tədbirlər həyata keçirilir. Təbii ki, bütün bu mənzərələrin fonunda ölkə başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi quruculuq və bərpa işlərinin daha operativ və effektiv şəkildə davam etdirilməsini təmin edir.



*ZƏRİFƏ QULİYEVA, YAP üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri*

### Qalib Liderin Vaqif Poeziya Günlərinin rəsmi açılışında bütün dünyaya növbəti mesajı...

"Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz", -deyən Ali Baş Komandanımızın "Dəmir yumruq" siyasəti altında Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərinin şücaəti ilə işğaldan azad etdi. Və torpaqların sahibləri öz torpağına sahib oldu. Hazırda Azərbaycan dövlətinin qarşısında duran prioritet məsələ işğaldan azad edilmiş ərazilərin bərpasıdır. Və dövlət başçımızın hər dəfə işğaldan azad olunmuş torpaqlara səfəri bir daha göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə maneə zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz.

Dövlət başçımızın dediyi kimi: "Çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır". Bəli, bu torpaqların sahibi Azərbaycan xalqı olduğu üçün də ədaləti bərpa edərək öz torpaqlarımıza sahib olduq. Prezident İlham Əliyev Novruz bayramı zamanı Şuşadan xalqa müraciət edərək bildirmişdi ki, ermənilər 30 il bizim torpaqlarımızı dağıtsadılar. Biz isə bu torpaqları bərpa edəcəyik, çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır: "Biz Şuşanı bərpa edəcəyik, mütləq bərpa edəcəyik. Artıq bərpa işlərinə start verildi. Bu gün Şuşada olarkən artıq verdiyim tapşırıqların yerinə yetirilməsi ilə tanış oluram. Biz nəinki Şuşanı, azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Quruculuq işləri başlamışdır, infrastruktur layihələrinə start verilmişdir. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları hazırlanır. Birinci növbədə, Ağdam şəhərinin və Ağdam rayonunun bütövlükdə baş planı hazırlanır, onun ilkin versiyası mənə təqdim edildi. Mənim tapşırıqlarımı nəzərə almaq şərtilə indi bunun üzərində iş gedir və yaxın gələcəkdə baş plan təsdiq olunacaq. Ondan sonra bərpa işləri azad edilmiş bütün torpaqlarda başlanacaq. Ermənilər 30 il bizim torpaqlarımızı dağıdıblar. Biz isə bu torpaqları bərpa edəcəyik, çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır".

### Hər kəs Ali Baş Komandana inanırdı və inanır!

"Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq". Prezident İlham Əliyev bu sözləri 3 il əvvəl, 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciətində demişdi. Prezident İlham Əliyevin çıxışlarında bu məzmunlu ifadələr çoxdur. Çünki dövlət başçısının hər bir çıxışında, görüşlərində, müraciətlərində, təbriklərində torpaqlarımızın işğaldan azad olunması məsələsi prioritet idi. İlham Əliyev hər zaman bəyan edirdi ki, danışıqlar nəticəsiz qalacağı təqdirdə güclü Azərbaycan Ordusu öz sözünü deyəcək. Artıq bu gün "gün o gün gələcək" ifadəsi realllığa çevrilib. Xalqımız o günün mütləq yetişəcəyinə, bayram tonqallarının Qarabağda qalanacağına əmin idi. Çünki hər kəs öz rəhbərinə, Ali Baş Komandana inanırdı. 44 günlük Vətən müharibəsində qazanılan böyük Qələbə o günü yetişdirdi. Artıq...

### Qarabağda həyat yenidən qaynayacaq

Bəli, bu gün işğaldan azad olunmuş torpaqlar quruculuq meydanına çevrilib. Prezidentin işğaldan azad olunmuş rayonlara səfəri zamanı -"Qarabağda cənnət yaradacağıq" vədi sözü ilə əməlin bir olmasının göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. Necə ki, "Qarabağ Azərbaycandır və nida işarəsi" deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etd, hazırda da "Qarabağda cənnət yaradacağıq" vədini addım-addım yerinə yetirməkdədir. Bir sözlə, bu gün artıq Azərbaycan Respublikasının Prezidenti azad nəfəsalan torpaqlarımızı gəzir, Qarabağın cənnətə çevrilməsi üçün tapşırıqlarını verir, işlərə nəzarət edir, yeni layihələrin həyata keçirilməsi yollarını arayıb-axtarır və bu sahədə əməli tədbirlər görür. Azərbaycan xalqı da öz Prezidentinə inanır və güvənir və əmindir ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilər bərpa ediləcək, böyük qayıdış başlayacaq və Azərbaycan dünyanın ən abad, gözəl, inkişaf etmiş dövlətləri sırasında olacaqdır.

Bir sözlə, bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Dövlət başçımızın dediyi kimi: "Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik".

**Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!**

## "Xarici dairələr Paşinyanı kənardan təlimatlandırır"

"Ermənistan hakimiyyəti hər vəchlə münaqişənin bitmədiyi görüntüsünü yaratmağa çalışır. İstər kommunikasiyaların açılması ilə bağlı sərgilənən qeyri-adekvat yanaşmalar, istərsə də sərhəddə və sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərdə törədilən hərbi təxribatlar bu amildən qaynaqlanır. İsterika içərisində olan Ermənistan regionda sülh və əməkdaşlığın bərqərar olmasını özü üçün qorxunc ssenari kimi dəyərləndirir. Rəsmi İrəvan onun fərqindədir ki, yeni reallıqlara uyğun addım atmaq Qarabağın "statusu" məsələsindən birdəfəlik imtinanı tələb edir. Buna görə də Emrənistan münaqişənin həle bitmədiyini bəyan edir, Minsk qrupunun prosesə cəlb olunmasının zəruriliyini ön plana çəkir, mövcud olmayan "status" məsələsini gündəmə gətirir və s. Bir sözlə, Paşinyan və onun komandası hər konstruktiv açıqlamanın əvvəlində, yaxud sonunda müəyyən şərtlər irəli sürməyə çalışır. Beləliklə, İrəvanın mövqeyində aşkar paradoks görünməkdədir. Təəssüf ki, münaqişənin sanki davam etdiyi təəssüratını yaradaraq, məsələnin müzakirəsini ATƏT-in Minsk qrupu platformasına qaytarmağa çalışan xarici dairələr də mövcuddur. Həmin qüvvələr bir sıra hallarda Paşinyanı kənardan təlimatlandırır, İrəvanı hərbi təxribatlara sövq edirlər". Bu sözləri SİA-ya açıqlamasında politoloq Ceyhun Əhmədli deyib.



Onun sözlərinə görə, ümumən, Paşinyanın kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası ilə bağlı son açıqlamaları pozitiv qarşılana bilər. Lakin təəssüf ki, əksər hallarda bu kimi açıqlamalardan sonra ənənəvi konyuktur davranış sərgilənir. Buna görə də İrəvanın səmimiyyətinə inanmaq olmur. Ermənistan tərəfi indiki reallığı nəzərə almalıdır. Paşinyan hökuməti mövcud durumu dəyişdirmək imkanına sahib olmadığını və reallıqla ayaqlaşmaq məcburiyyətində olduğunu dərk etməlidir. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Ermənistanın alternativ seçim şansı yoxdur. İrəvanın yeganə yolu ondan ibarətdir ki, Azərbaycanla danışıqlara gəlsin, əməkdaşlığa qoşulsun və sülh sazişini imzalasın.

İrəvan ona verilən ciddi mesajları anlamalıdır. Bu haqda Ceyhun Əhmədli fikirlərini belə izah edib: "Azərbaycan Prezidentinin Ermənistan tərəfi istəsə də istəməsə də Zəngəzur dəhlizi açılacaq ifadəsi İrəvan üçün ciddi siqnal olmalıdır. Yəni, biz hər bir halda o dəhlizin açılmasına nail olacağıq. Ya dinc yolla, ya da güc yolu ilə. Bütün bunların fonunda işğaldan azad edilmiş torpaqlarımızda abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Nəqliyyat kommunikasiyaları qurulmaqdadır. 3 hava limanının tikilməsi haqqında qərar verilib. Sentyabrın 5-də Füzuli hava limanında ilk sınaq uçuşu həyata keçirildi. Təbii ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində baş verənlər Ermənistan və onun havadarları tərəfindən diqqətlə izlənilir. İrəvan anlayır ki, bütün bunlar iqtisadi layihələrlə yanaşı, həm də Azərbaycanın müdafiə qabiliyyətini, təhlükəsizliyini artıran əsas faktorlardır. Ona görə də zaman Ermənistanın əleyhinə işləyir. Paşinyan hakimiyyəti Azərbaycan Prezidentinin sülh və əməkdaşlıq çağırışlarına nə qədər tez müsbət cavab versə, bir o qədər onların özü üçün faydalı olacaq. Əks halda Azərbaycan bütün parametrlər üzrə öz gücünə güc qatır, müdafiə potensialını daha da təkmilləşdirir və təbii ki, "Dəmir yumruğumuz" da yerindədir".

*Turqay Musayev*

## "Limanın istifadəyə verilməsi erməniləri təşvişə salır"

"Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi çox mühüm əhəmiyyətə malikdir. Əvvəla, uzun müddət Füzuli işğal altında olub, Füzuli şəhəri tamamilə məhv olunub, ölkə başçısının dəfələrlə xatırlatdığı kimi Füzulidə bayraq asmağa belə bir yer olmayıb. Ermənilər Füzulidə daşı daş üstə qoymayıblar. Ona görə də belə bir şəhərdə, belə bir rayonda tez bir zamanda və az müddətdə belə bir təyyarə limanının istifadəyə verilməsi həm Azərbaycan iqtisadiyyatının gücünü, həm də Azərbaycan Prezidentinin, Ali Baş Komandanının öz vədinə sadiqliyini ortaya qoyur." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədrinin sözlərinə görə, heç bir dövlət inanmırdı ki, Azərbaycan tez bir zamanda işğaldan azad olunmuş torpaqlarda belə böyük işlər görə, çox əhəmiyyətli tədbirlər həyata keçirə bilər.



"Bilirsiniz, artıq Şuşaya yol çəkilir, artıq Şuşa şəhəri ölkənin mədəniyyət paytaxtı kimi öz görkəmini dəyişib. Son aylarda orada beynəlxalq əhəmiyyətli mühüm tədbirlər həyata keçirilib. Digər tərəfdən Kəlbəcər yolu çəkilir. Belə bir limanın tikilməsi, istifadəyə verilməsi erməniləri həddindən artıq təşvişə salır. Elektrik stansiyaları quraşdırılıb, ağıllı şəhər, ağıllı kənd layihələrinin artıq həyata keçirilməsi reallaşdırılır. Artıq həmin ərazilərdə heyvandarlığın, arıçılığın, kənd təsərrüfatının inkişafı üçün tədbirlər görülür. Bilirsiniz, bunlar kompleks tədbirlərdir və ölkə rəhbəri cənab İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində bu tədbirlər, bu layihələr sistemli şəkildə həyata keçirilir və düşmənin bağrına necə deyərlər, dağ çəkir.

Əlbəttə ki, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi qonşu ölkələrlə əlaqələrin möhkəmləndirilməsi üçün çox vacibdir. Azərbaycan iqtisadiyyatının inkişafı üçün çox vacibdir. Bu, gələcəkdə imkan verəcək ki, həmin region sürətlə inkişaf etdirilsin. Ora böyük bir limandır. Sözsüz ki, bu limanın istifadəyə verilməsi xarici ölkələrlə əlaqələrin möhkəmləndirilməsi deməkdir, yüklər daşına bilər, digər məsələlər var ki, bu yolla öz həllini tapacaqdır.

Əlbəttə ki, bu, sevindiricidir. Sözsüz ki, nəzərdə tutulur Laçında da belə bir təyyarə limanı istifadəyə verilsin. Bu gün işğaldan azad olunmuş ərazilərdə, Ağdamda, Füzulidə, Zəngilanda, Kəlbəcərdə və digər rayonlarda görülmüş işlər göstərir ki, Azərbaycan Prezidentinin işğaldan azad olunmuş torpaqların vaxtında bərpa olunacağı və Qarabağın cənnətə çevriləcəyi barədə dedikləri reallaşır. Bu, Azərbaycanın gələcəyi üçün çox vacibdir. Bizim beynəlxalq nüfuzumuzun artırılması üçün çox vacibdir. Bu, ölkənin gələcək inkişafına təkan verməklə bərabər gələcəkdə həmin ərazilərə köçürülən insanların, orada yaşayan insanların həyat şəraitinin yaxşılaşdırılması üçün çox vacibdir. Çünki, bu, deməyə əsas verir və bizdə böyük inam yaradır ki, həqiqətən də Azərbaycan dünyanın ən inkişaf edən, ən məməni regionlarından biri ölacaq", deyə Tahir Rzayev bildirib.

*İnam Hacıyev*

TƏRS BAXIŞ+ÖZƏL

# Ruslar İzauranın xilas olmaq ümidlərini niyə və necə qırdılar?

*Yaxud, sülhməramlıdan çox sülhməramsızlıq mənzərəsi*

**Bu yaxınlarda Şuşa yaxınlığında, rus sülhməramlılarının məsul olduqları bölgədə maraqlı və əslində, düşündürücü hadisə baş verib. Xankəndidə yaşayan 32 yaşlı İzaura Balasanyan adlı 32 yaşlı erməni qadın özünün dörd azyaşlı övladları ilə Rusiya SM-nın postlarında xidmət edən hərbçilərə yaxınlaşaraq, Azərbaycan həbrçilərinin postlarına doğru keçmək istəyini bildirib. O, qeyd edib ki, azyaşlı övladları ilə yaşamağa yeri yoxdur və evinə - Şuşaya geri dönmək istəyir.**




### İzaura Balasanyan: "Ruslar mənə dedilər ki, lazım deyil, bu ayıb bir işdir, sizin xalqınıza şərəf gətirməz"

İzaura Balasanyan deyib: "Hə, mən Şuşaya ona görə yola düşmüşəm ki, mənim evim yoxdur. Mən mərhum ərimin və anamın fotoşəkillərini götürərək Şuşaya doğru qalxdım. Təmas xəttinə çatandan sonra ruslar şəhərə girişimə icazə vermədilər. Onlar mənə dedilər: "Lazım deyil, bu ayıb bir işdir, sizin xalqınıza şərəf gətirməz". Mən şəhərə daxil olmadım. Türklərlə (azərbaycanlıları nəzərdə tutur) rusların arasında dayanmışdım. Ona ruslar öz rəsmilərinə telefon zəngi etdilər, o da "nazirliyə" (qondarma qurumun strukturunu nəzərdə tutur) müraciət etdi ki, sizinkilərdən bir nəfər türklərə təslim olmağa hazırlaşır. Bax beləcə, "Milli təhlükəsizlik Xidməti" gəldi".

Maraqlıdır, məgər üçtərəfli bəyanatda Azərbaycana inteqrasiya olunmaq istəyən ermənilərə nəyin ayıb olması, nəyin isə ayıb olmaması, ya da şərəf gətirib-gətirməməsi barədə izahların edilməsi barədə Rusiya SM-ı üçün hazırlanmış ayrıca bəndmi mövcuddur?

### Beləliklə, İzauranın dediklərindən daha hansı nəticələri çıxara bilərik?

1. Həqiqətən də Xankəndi və Rusiya sülhməramlılarının nəzarət etdikləri əra-



zilərdə yaşayan ermənilərin sosial və maddi vəziyyətləri ifrat dərəcədə pisdir və onların yaşadıqları adi bir hər gün məşəqqətlidir. Əbəs deyil ki, İzaura öz şikayətində onu da bildirib ki, əvvəllər Xankəndidəki rejim onun üçün yaşayış yeri ayırmışdı, lakin sonradan həmin məkandan çıxarılıb. O isə kirayə ev tutub, lakin evin sahibi kirayə haqqını artırdığı üçün onun evi tərk etməkdən başqa çarəsi qalmayıb.

2. İzaura Balasanyan Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşıdır və o, nəticə etibarı ilə bunu dərk edib. Ona görə də, separatçı rejimin onun qayğısına qalmayacağını, taleyin hökmünə buraxıldığını birdəfəlik anlayaraq, pənahını, xilasını Azərbaycan dövlətində axtarmaq qərarına gəlib.

3. Qərarını verdikdən sonra isə yola düşən İzaura Rusiya sülhməramlılarının postlarını keçə bilməyib və bu məqam xüsusi diqqətə alınmalıdır. Belə ki, Rusiya sülhməramlıları erməni milliyyətindən olan Azərbaycan vətəndaşının normal həyata inteqrasiya olunmasına maneə törədiblər!

Halbuki, onların vəzifələrindən biri də məhz tərəflər arasında sülhü təmin etmək, birgəyaşayış mühitini yaratmaqdır. Sual yaranır: nəyə görə onların səlahiyyətliləri məlumatı separatçıların hansısa "orqanlarına" xəbər verib, lakin Azərbaycanın müvafiq qurumları ilə əla-



qə yaratmayıb? Məsələ bəllidir, Rusiya SM-rı kontingenti əlinə düşən hər imkanında təxribat xarakterli əməllərə rəvac verir (Laçın dəhlizi vasitəsi ilə erməni silahlılarını Qarabağ ərazisinə buraxdığı kimi) və bu da onun növbətisidir.

### Ya sülhpərvər olun, ya da..!

Nəticə olaraq isə fakt budur ki, artıq bundan sonra İzaura Balasanyanın yaşadığı taleyə bənzər hadisələrin tez-tez şahidlərinə çevriləcəyik. Qarşıdan soyuq aylar gəlir və Xankəndi, eləcə də digər ermənilər yaşayan ərazilərdə elektrik enerjisinin kəsintiləri, qaz, su problemləri daha da artmağa başlayacaq.

Rus sülhməramlıları isə, əslində, bu kimi sülhməramsızlıqları vasitəsi ilə erməni mənşəli Azərbaycan vətəndaşlarının inteqrasiya proseslərinə, bax, bu kimi davranışları ilə mane olacaqlar. Daha yaxşı olardı ki, müvafiq strukturlarımız onlara bu istiqamətdə barmaq silkələsinlər və müəyyən dərslər keçsinlər ki, "başınız girməyən yerə bədəninizi dürtməyin", ya sülhpərvər olun, ya da..!

***Rövşən RƏSULOV***

# "Ermənistan rəhbərliyinə inanmaq çətin məsələdir"

POLİTOLOQ MÜNASİBƏT BİLDİRDİ

**"Biz Paşinyanın nazirlər kabinetinin iclasındakı çıxışına aldanmamalıyıq. Ermənistan rəhbərliyinin istənilən hərəkətlərinə, oyunlarına bir element kimi baxmalıyıq". Bunu SİA-ya açıqlamasında politoloq, Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı deyib.**



Onun sözlərinə görə, Paşinyan son bir ay ərzində Ermənistan cəmiyyətinə müəyyən mesajlar göndərir: "Bu mesajlar daha çox Türkiyə ilə münasibətlərin normallaşması və bölgədə kommunikasiyaların açılmasından ibarətdir. Bununla o Ermənistan cəmiyyətinə istəklərini çatdırır. Zəngəzur dəhlizi ifadəsini işlətmədən Bakı ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinin qurulmasının vacibliyini dilə gətirib. Bir tərəfdən bu yaxşı haldır ki, artıq onlar bunu başa düşürlər və bu cür fikirlər səsləndirirlər, amma digər tərəfdən isə müəyyən oyunlar da ola bilər. Çünki Ermənistan rəhbərliyinə inanmaq çətin məsələdir. Eyni zamanda, biz rus sülhməramlılarının mövqeyindən də narazıyıq. Məlumdur ki, Minsk Qrupunun həmsədrləri fəallaşıblar. Rusiyalı həmsədr regiona səfər etdi və hətta erməni canisi Arayık Arturyanla da görüşdü. Digər tərəfdən də həyəcan, narahatçılıq doğuran siqnallar gəlir, hadisələr baş verir. Ona görə də, biz Paşinyanın bu açıqlaması ilə özümüzü tam şəkildə arxayınlaşdıra bilmərik".

A.Nağı bildirdi ki, başqa istiqamətlərdə təhlükəli məqamlar var və o məqamlar nəzərdə saxlanılmalıdır: "Yeni Ermənistan rəhbərliyi kommunikasiyaların açılması və Zəngəzur dəhlizi ilə bağlı bu cür çıxışlar edirsə, deməli, başqa bir şeydə nə isə əldə etməyə çalışır. Bu baxımdan da, ermənilərə tam inanmaq, arxayın olmaq olmaz. Bizim üçün vacib olan məsələ bütün Qarabağda Azərbaycanın suveren hüquqlarının bərpa olunmasıdır".

***Gülyana***

# "Artsax" ermənilərini kim və kimdən qoruycaq?

**Ermənilər, indi də deyirlər ki, guya Azərbaycan Türkiyə ilə "əlbir olub" "artsax"ın qalan hissəsindəki Rusiya hərbi kontingentinin sayını azaltmaq və sonradan isə zərərsizləşdirib buralardan uzaqlaşdırmaq üçün səy göstərəcəklər.**

...Guya Azəbaycanın Rusiya sülhməramlılarının mandatı ilə bağlı danışıqları yubatması da buna hesablanıb.

...Guya Qərbin (ilk növbədə ABŞ və Aİ-A.B.) maraqları da bu kontekstdə Azərbaycanın mövqeyi ilə üst -üstə düşür: yəni Rusiya sülhməramlılarını geri çəkmək və onları Türkiyə ilə əvəz etmək. Və hətta Ağdamda fəaliyyət göstərib vəziyyəti izləyən Rusiya-Türkiyə ortaq mərkəzi də bu yolda ilk işarədir.

Ermənilərə görə, bu gün rus sülhməramlıları "artsax"ın azca qalan hissəsində əhalinin fiziki təhlükəsizliyini təmin etsələr də, amma azərbaycanlılar da "dinc dayanmırlar", məzlum "artsax" xalqına qarşı "təxribatlar" törədirlər, rus sülhməramlıları üzlərini yana çevirən kimi, "yerli artsaxlıları" daşlayırlar.

...Deyim ki, erməni saytlarında bunun sübutu kimi sındırılmış bir



pəncərə şüşəsini də şəkil kimi qoyublar. İnsafən, pəncərə şüşəsinin qəsdən, yəni raqatqayla vurulub sındırıldığı o dəqiqə sezilir.

...Nə isə, uzatmayaq, bircə onu deyim ki, Allah bu sınıq şüşələri tapıb şəkilini çəkənin, onu sayta yerləşdirənin bəlasın versin...Adam baxa bilmir, ürəyi ağrayır...

Hə, nədən danışırdıq, deyəsən, yadıma düşdü.

Deməli, ermənilər daha sonra deyirlər ki, rus sülhməramlılarının kontingenti "artsax"da daha 4 il qalacaq. (...dörd il nədir ki, köhnə kişilər demişkən, papağını fırlat, gəlib keçəcək- A.B.) Bu müddət ərzində olmadı elə, oldu belə, yəni bölgədə və Rusiyada gözlənilməz kardinal dəyişikliklər baş verə bilər. Lap elə deyək ki, Rusiya-Türkiyə biri-birindən inciyə bilər, münasibətləri kəskin şəkildə dəyişə bilər. Bəs, bu halda, "bu məzlum artsax ermənilərinin" halı necə olacaq, onların təhlükəsizliyinə kim təminat verəcək?

Odey, David Babayan, "artsax xin rəhbəri"ni deyirəm, qan ağlayır. Deyir, artıq qabağın ala bilmirik. Nə qədər şirin dilə tuturuq, nə qədər vədlər veririk, xeyri yodur. Yoxlasan, bu gün "artsax ermənilərinin" yarıdan çoxu geyinib çemodanlarının üstündə oturub, aradan çıxmaq üçün məqam gəzirlər. Yaxşı, iksini mən tutub saxladım, iksini də, deyək ki, Araik (yəqin Araik Arutyunyanı - "prezidenti" deyir -A.B.) tutdu, bəs, qalanları necə olsun. Yenə də rus sülhməramlıları az da olsa qabaqlarını alıb, qaçanları tutub gerі qaytarırlar. Bəs, 4 ildən sonra nə olacaq? Onları kim tutub geri qaytaracaq?

...Amma, o gün savadlı ermənilərdən biri danışır ki, guya Babayan, gopa basır, yəni olanları daha da şişirdir. Əslində, bu gün Qarbağ ermənilərini Azərbaycan tərəfdən heç bir təhlükə gözləmir. Gözlənilən təhlükə Araik Arutyunyanla yanaşı, David Babayan kimi sadə erməniləri təhlükəyə atan separatçılar üçündür. Bir də, deyilənə görə, David Babayanın yalandan hay-həşir salması, xaricdəki erməni diasporundan onlara çatan ianənin azalması ilə bağlı ola bilər. Yəni Babayanın "min oyunu" himayədarlarından daha çox həm maddi, həm də mənəvi dəstək əldə etməyə hesablanıb.

...Onsuz da Qarabağdakı separatçıların çətin vəziyyətdə olduğunu, yəni onların son günlərini saydıqlarını elə İrəvan erməniləri də yaxşı bilirlər.

***Ağasəf Babayev***

# "Paşinyan hətələm-pətələm danışmağa öyrəşib"

"Ümumiyyətlə, Ermənistan baş naziri Nikol Paşinyan hətələm-pətələm danışmağa öyrəşib". Bunu SİA-ya açıqlamasında deputat Rasim Musabəyov deyib.

Onun sözlərinə görə, Paşinyan bu gün ayrı, sabah ayrı bir söz deyir. Üçüncü gün deyir ki, o, birinci gün dediyim söz, düzgün başa düşülməyib, mən bunu nəzərdə tuturdum. Bu barədə Rasim Musabəyov fikrini belə izah edib: "Paşinyan mahiyyətinə görə, delitant, yəni eşitdiyini deyən, populist, daha çox aventurist fikirlərə meyillidir. Düşünürəm ki, daha çox onun orada bu gün bunu deməsi sabah ayrı söz deməsi o qədər də əhəmiyyətli deyil. Onu konkret qərarlara sürümək, o qərarları qəbul etməyə məcbur etmək lazımdır. Bu baxımdan, onun danışığına elə də böyük əhəmiyyət verməyə ehtiyac yoxdur".

***Turqay Musayev***



# Qarabağda blindajlar hansı məqsədlə qazılır

*Rus sülhməramlılarının müvəqqəti olaraq yerləşdikləri Azərbaycan ərazilərində silahlı erməni qalmamalıdır, bu qədər bəsit!*

**Azərbaycan Silahlı Qüvvələri qanuni və hüquqi olaraq öz ərazilərində yerləşiblər, ancaq üçtərəfli bəyanatda qeyd olunmuş bəndlərə görə "artsax" adlı qondarma qurumun silahlı quldur dəstələri, eləcə də Ermənistanın Rusiya sülhməramlılarının burunlarının altından - Laçın dəhlizindən sızan hərbçi dəstələri bu əraziləri tərk etməlidirlər. Yəni, bəyanatın qəbul olunmuş prinsiplərindən biri də budur.**



Yaxud, erməni əsgəri yalnız Ermənistanın ərazilərində, eləcə də həmin ölkələrin ərazilərində olmalıdır ki, bu ölkələr onlara razılıq veriblər - misal üçün, Suriya və s. Beləliklə, erməni silahlı qüvvələrinin mövcud olmaması üçün hər hansı qanun yoxdur, onlar müəyyən olunmuş ərazilərdə ola bilərlər, yalnız həmin ərazilər daxilində Azərbaycan adlı ölkə olmamalıdır!



### Bakı Rusiya sülhməramlılarına mandatın verilməsi prosesini haqlı (!) olaraq gecikdirir

Bir daha üçtərəfli bəyanatın 4-cü bəndini xatırlayaq: bütün erməni gücləri (yəni Ermənistan silahlı qüvvələrinin briləşmələri, eləcə də qanunsuz erməni silahlıları) Rusiya sülhməramlıları məsul olduqları bölgələrə daxil olduqları zaman paralel olaraq Qarabağ ərazisindən çıxarılmalıdırlar. Beləliklə, rus sülhməramlılarının müvəqqəti (!) olaraq yerləşdikləri Azərbaycan ərazilərində silahlı erməni qalmamalıdır, bu qədər bəsit!



Bəli, Bakı hər şeyə nəzarət edir, hətta ən kiçik detallar belə qeydə alınır və tədbirlər görülür, ancaq rus sülhməramlıları bütün bunlarla yanaşı, erməni silahlı quldur dəstələrinin Qarabağda səngər qazmalarına, blindajlar tikmələrinə qadağa qoymalıdırlar. Lakin bu da nədənsə rusların gözlərindən yayınır (?!). Ya da onlar quldurların müdafiə istehkamları qurmalarına barmaqarası baxmaqla bilavasitə üzərlərinə düşən öhdəlikləri qəsdən (!) yerinə yetirmirlər.

Nəticədə Bakı Rusiya sülhməramlılarına mandatın verilməsi prosesini haqlı (!) olaraq gecikdirir və belə davam edərsə, onların Azərbaycan ərazilərini vaxtından əvvəl tərk etmələri ehtimalı get-gedə artmağa başlayır.

### Məğlub olmaq faktı kapitulyasiya deyilsə, onda hansı səbəblərdən mühasirəyə düşmüş, məhvə uğramış 30 minlik qruplaşmaları Ağdamdan çıxarıldılar?

Halbuki, ruslar separatçılara sual etməlidirlər ki, onlar blindajları kimə qarşı tikirlər? Onları müharibə vaxtı darmadağın edib, kapitulyasiyaya uğradanlara qarşımı? Və ya məğlub olmaq faktı kapitulyasiya deyilsə, onda hansı səbəblərdən mühasirəyə düşmüş, məhvə uğramış qruplaşmaları Ağdamdan çıxarıldılar, yaxud Kəlbəcəri və Laçını niyə tərk etdilər? Belə döyüşəniydilərsə axıra qədər direniş göstərərdilər. Ancaq bunu edə bilmədilər, çünki diz çökdülər!

Belə yerdə istər-istəməz bu fikirlər yer almağa başlayır: gərək sizi mühasirədən çıxmağa imkan verməzdik, lakin sizlərdən fərqli olaraq bizdə humanizm prinsipləri var. Amma hər şeyə rəğmən, müharidən çıxmağınıza şərait yaradıldı.

İndi siz bu böyük humanist addımı qiymətləndirə bilməməyinizlə yanaşı, yenidən bərpa olunmağınız haqqında xəyallara dalır, müharibə ritorikaları ilə çıxışlar edirsiniz. Halbuki, mühasirədən çıxmağınıza imkan verilməsəydi, təkcə Ağdamda +30 min zinvorunuza (erməncə əsgər) da yas saxlayacağıydınız.

### Rusiyanın sülhməramlı kontingenti heç bir məsələyə qarışmayacaq

Sizin həyatlarınız ona görə qorundu ki, siz (silahlı quldurlar) gedəsiniz və bir daha geri dönməyəsiniz. Silahsızlarınız. Dinc əhaliniz isə qalıb öz həyatlarını davam etsinlər.

Onların təhlükəsizliklərini üçtərəfli bəyanata görə dəvət olunmuş Rusiya sülhməramlıları qoruyur. Bütün bunlar fakt olaraq ortadadırsa, onda Qarabağda yenidən tikilən blindajlar hansı məqsədlidir? Kimlərə qarşı müharibə aparacaqsınız? Deməli, belə çıxır ki, pretenziyalarınız qalıb? Fəqət, unutmayın ki, bunu siz istəyirsiniz və bu dəfə Rusiyanın sülhməramlı kontingenti heç bir məsələyə qarışmayacaq, heç ixtiyarları da yoxdur, çünki onların missiyaları dinc əhalini qorumaqdan ibarətdir, başqa heç nə..!

***Rövşən RƏSULOV***



## "Bu cür yersiz hərəkətlər onların xarakteridir"

"Son vaxtlar müxalifət düşərgəsində yaranan boşluğu doldurmaq üçün müxalifətdə olan bəzi şəxslərin siyasi şoular yaradıb, cəmiyyətə çaşqınlıq yaradan bir mövqe ortaya qoymaq istəkləri baş tutmayacaq. Yəni Əli Əliyev kimi boşboğazların əhalini vaksin vurmamağa çağırmaları alınmayacaq. Çünki hər kəs dövlətimizin sağlamlığın qorunması istiqamətində gördüyü tədbirləri başa düşür və dəyərləndirir". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, bütün dünya ölkələri bu virusla mübarizə aparır: "Müxalifət təmsilçilərinin bu cür yersiz hərəkətləri onlara hansı bir siyasi divident qazandırmayacaqdır. Onlar əhalini vaksin vurmaqdan çəkindirməklə ölkədə nə isə xoşagəlməz bir vəziyyət yaratmaq istəyirlər. Ancaq qətiyyətlə deyə bilərəm ki, müxalifət təmsilçilərinin nə etməsindən və nə deməsindən asılı olmayaraq onların heç vaxtı Azərbaycanla bağlı xoşagəlməz planları baş tutmayacaq. Yaxşı olardı ki, onlar bu cür yersiz hərəkətlərindən əl çəksinlər. Ümumiyyətlə, görünən ondan ibarətdir ki, Ə.Əliyev kimilərinin yersiz hərəkətləri onların xarakteridir. İstəkləri də xarici qüvvələrin diqqətini özlərinə cəlb etməkdir. Uzun illərdi ki, eyni formada fəaliyyət göstərirlər və yenə də həmin fəaliyyəti davam etdirirlər. Bunların ictimaiyyət arasında heç bir dayaqları yoxdur. Yəni hər hansı bir formada etimad qazana bilmirlər. Çünki onların xalq tərəfindən heç bir dəstəyi yoxdur. Belə olan halda da müxalifətin nə isə bir uğur qazanması mümkün deyil. Ümumiyyətlə, demək olar ki, müxalifətçilər bu cür şeylərdən əl çəkməlidirlər".

## YENİ QƏRAR: Bu şəxslər də vaksinasiya oluna bilərlər

Artıq son 5 ayda COVID-19 testi pozitiv çıxan şəxslər vaksinasiya oluna bilərlər. SİA xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıb. Məlumatda bildirilir ki, hazırda "Azərbaycan Respublikasında "COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi davam edir. Artıq son 5 ayda COVID-19 testi pozitiv çıxan şəxslər vaksinasiya oluna bilərlər. Bunun üçün randevu.its.gov.az saytına daxil olaraq koronavirus xəstəliyi əleyhinə vaksinasiya üçün onlayn qaydada növbə götürülməlidir. Qeyd edək ki, "İmmunitet sertifikatı"nın etibarlılıq müddəti 6 aydır. Əlavə məlumat üçün bildiririk ki, immunitet və peyvənd sertifikatları 24 saat ərzində elektron sistemdə öz əksini tapır.

# Ermənilər kommunikasiyaların açılmasını niyə istəmir? - ŞOK SƏBƏB

**"Ermənistan hakimiyyəti kommunikasiyaların açılması və ucuz türk mallarının Ermənistan bazarına nüfuz etməsi ilə bağlı riskləri hesablayıbmı? Ermənistanın tekstil və kənd təsərrüfatı məhsullarının aqibəti necə olacaq?". Bunu beynəlxalq təhlükəsizlik məsələləri üzrə mütəxəssis Armen Manvelyan news.am saytına müsahibəsində bildirib.**

"Düşünürəm ki, bütün bunları səlahiyyətlilər etməyib. Onlar buna qadir deyillər, uyğun kadr bazasına malik deyillər. Dövlət ekspert şurasının rəyini nəzərə almadan gözlənilməz bir oyuna girməyə çalışanda risklə üzləşirik", deyə ekspert əlavə edib.

Onun sözlərinə görə, sərhədlərin açılmasından sonra Türkiyənin kənd təsərrüfatı məhsullarının Ermənistan bazarına nüfuz etməsi və nəticədə kənd təsərrüfatının geriləməsi baş verəcək: "Bu proqram yaxın gələcəkdə həyata keçiriləcəyi təqdirdə, erməni istehsalçılarının Türkiyə bazarında öz yerlərini tuta biləcəkləri ehtimalı çox aşağıdır. Digər tərəfdən, Türkiyə mallarının Ermənistan bazarını ələ keçirmə ehtimalı yüksəkdir. Buna görə də yüz minlərlə işçinin çalışa biləcəyi kənd təsərrüfatı sektorunu inkişaf etdirmək və rəqabətə davamlılığını artırmaq vacibdir. Əks təqdirdə, bu, Ermənistanın sonunu gətirə bilər".

Manvelyan Azərbaycan-Türkiyə tandeminin məqsədlərindən birinin Ermənistan bazarına iqtisadi nüfuzun təmin edilməsini izah edib: "Buradakı açar, daim danışılan Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizini ələ keçirsələr erməni əhalini buradan benzinin və digər malların daha ucuz qiymətə alınacağına inandırmağa yönəlmiş siyasət aparacaqlar. Buna regional "batumizasiya" deyilir. Hansı ki, belə bir üsul Türkiyə tərəfindən Batumidə həyata keçirilir".

Əslində erməni ekspert yeni heç nə demir, əksinə Ermənistanın və bu ölkədə mütləq dominatlıq edən ermənilərin yüz illərlə alışdıqları həyat tərzinin dəyişiləcəyindən sonra baş verəcək hadisələrdən narahat olduğunu dilə gətirir. Məsələ burasındadır ki, hələ Sovetlər dövründə Ermənistan "qardaş respublikalar" arasında dotasiya ilə yaşayanların önündə gedirdi. Yalnız Rusiya, Ukrayna və Azərbaycan mərkəzi hökumət büdcəsindən əlavə vəsait almırdı, əksinə, ora ödəmələrdə müsbət saldo var idi. Ermənistan müstəqillik qazanandan sonra da bu ənənə sona çatmadı, yalnız ünvan dəyişdi. Bu dəfə ermənilər beynəlxalq fondlardan, ayrı-ayrı dövlətlərdən gələn ianələr hesabına yaşamlarını davam etdirdilər. Hər il keçirilən marafonları, erməni lobbisinin dünyamiqyaslı dilənçiliyindən əldə etdiyi vəsaiti nəzərə alsaq, Ermənistan büdcəsinin hansı mənbələr hesabına formalaşdığını əyani şəkildə görə bilərik. Belə asan yolla "qazanılan" dollardan kim imtina edər?



Bəs Ermənistana milyonlar, milyardlar niyə verilir? Hansı səbəblər para axınını "hay"lara tərəf yönəldir? Birinci səbəb kimi Ermənistanın Azərbaycan və Türkiyə tərəfindən blokadaya alınması, ikinci səbəb, şərq və qərbdən kommunikasiya xətlərinin başlanması, üçüncü səbəb, müharibə, dördüncü, beşinci... və s. və ilaxır göstərilir. Nəticədə ermənilər heç bir əziyyət çəkmədən milyardlar qazanırlar. İndi Azərbaycan və Türkiyə Ermənistana kommunikasiya xətlərini, nəqliyyat dəhlizini açmaqla böyük şans yaradırlar. Və belə olan halda, ermənilər də yeqin bilir ki, fondlar əvvəlki kimi ianə göndərməyəcəklər. Ona görə də, harınlamış, işləmək həvəsi olmayan Ermənistan cəmiyyəti kommunikasiya xətlərinin, o cümlədən Zəngəzur dəhlizinin açılmasına qarşıdırlar.

***V.VƏLİYEV***

# Multikulturalizmin və tolerantlığın mərkəzi Azərbaycandır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*QEYD: Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Azərbaycandakı multikulturalizm və tolerant mühit mövcud dəyərlərimizə əsaslanır. Bu dəyərlər tarixboyu formalaşmış və etnik zənginliyi ilə seçilən Azərbaycanda müxtəlif xalqların nümayəndələri sülh, əmin-amanlıq şəraitində yaşamış və bu gün də belədir.***



Müxtəlif xalqların adət-ənələrinə, dininə hörmətlə yanaşma xalqımızın milli keyfiyyəti olmaqla yanaşı, humanizm dəyərlərinə, birgəyaşama mədəniyyətinə söykənir. Fərqli etnik qrupların sülh şəraitində yaşaması, bərabərhüquqlu fəaliyyətinə yaradılan zəmin multikulturalizmin Azərbaycan modelinin formalaşdığının göstəricisidir. Bu gün ölkəmizin demək olar ki, bütün ərazisində qeyri-xalqların nümayəndələri qarşılıqlı anlaşma və dialoq şəraitində vahid bir ailə kimi yaşayır və milliyyətindən asılı olmayaraq hər kəs bərabərhüquqludur. Bu, Azərbaycan Respublikasının Konstitusiyasında da əksini tapıb. Belə ki. Konstitusiyanın 18-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır və bütün dini etiqadlar qanun qarşısında bərabərdir. Milli Məclis tərəfindən qəbul olunan "Dini etiqad azadlığı haqqında", "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanunlar da tolerantlıq və multikulturalizm prinsiplərinin ölkəmizin qanunvericiliyində əksini tapdığını bir daha təsdiqləyir. Ölkəmizdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, 2016-cı ilin "Multikulturalizm ili" elan olunması dövlətimizin multikulturalizm siyasətinə əsaslanır. Əlbəttə ki, humanizm prinsiplərinə əsaslanan ölkəmizdə insan ləyaqətinə xələl gətirən, ona zidd olan dinlərin yayılması və təbliğinə imkan verilmir. Mövcud qanunlar və mövcud mühit Odlar diyarından dünyaya bir mesajdır. Xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələrinin birgə sülh və əmin-amanlıq şəraitində yaşaması nümunədir. Azərbaycanın multikulturalizm modelini öyrənmək istəyən hər kəs ölkəmizin istənilən məkanına üz tutsa, mövcud mühiti görə bilər. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin vurğuladığı kimi, "Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir". Belə böyük dəyərlərə sahib olmaq hər xalqın həyatına həkk olunmayıb. Azərbaycan dünya ölkələrinə müxtəlif icmaların dinc şəraitdə və qarşılıqlı hörmət münasibətində birlikdə yaşaya bilmək modeli kimi nümunə göstərə bilir. Paytaxt Bakıda, Qubada, Zaqatalada, Qusarda, Qaxda, İsmayıllıda və digər yerlərdə müxtəlif xalqların necə sülh, dostluq şəraitində yaşadığı diqqətdən yayınmır. Hər bir məkanda etnik qrupların icmaları, mədəniyyət mərkəzləri, öz etiqad və ayinlərini yerinə yetirmək üçün olan ibadətgahlar və s. fəaliyyətdədir ki, ölkəmizə gələn qonaqlar bunu yüksək dəyərləndirirlər.



### "AZƏRBAYCANDA BÜTÜN XALQLAR BİR AİLƏ KİMİ YAŞAYIR"

Əlbəttə ki, bu gün müxtəlif dövlət qurumlarında qeyri-xalqların nümayəndələri təmsil olunur, ölkəmizin ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayırlar. Qarabağ uğrunda gedən döyüşlərdə ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri həmrəy oldular. Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda müharibədə iştirk etdilər. Azərbaycan vətəndaşı olaraq bir yumruq altında birləşdilər və silaha sarıldılar. Bu birlik, həmrəylik sağlam mühitə, tolerant və mültikultural mühitə söykənir. Hətta, Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalında ölkəmizdə yaşayan qeyri-xalqların təmsilçiləri iştirak etdilər. Dünyaya bir mesaj olaraq çatdırıldı. Dövlət başçısının bildirdiyi kimi: "Bu da bir daha onu göstərir ki, Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır. Uzun fasilədən sonra Şuşada təşkil edilmiş "Xarıbülbül" festivalının ilk günündə Azərbaycanda yaşayan xalqların nümayəndələri səhnəyə çıxmış və öz mədəniyyətlərini nümayiş etdirmişlər".

### MULTİKULTURAL MÜHİT: RAHAT VƏ AZAD HƏYAT

Azərbaycanda onlarla müxtəlif dini qurum, birlik və icmaların fəaliyyətdə olması ölkəmizdə hökm sürən bu mühiti əsaslandıran amillər sırasındadır. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, "Yeni həyat" Xristian İncil dini icması, Bakı şəhəri "Molokan ruhani-xristian" dini icması, Alban-Udi Xristian dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və digər qurumlar ölkəmizdə sərbəst və azad şəkildə fəaliyyət göstərirlər. Bu bir daha ona əsaslanır ki, molokanlar, yəhudilər, tatlar, saxurlar, ləzgilər üçün Azərbaycanda geniş imkanlar yaradılıb və hər bir xalqın nümayəndəsi rahat və azad nəfəs alır. Azərbaycanda təkcə yəhudilərin 7 sinaqoqu, 2 orta məktəbi, 1 kolleci, 3 uşaq bağçası və Yəhudi Evi fəaliyyət göstərir. Qeyri-xlqların yaşadığı Krasnaya Sloboda, İvanovka kimi kəndlərə daima dövlətimiz tərəfindən diqqət və qayğı göstərilir.

### QİBTƏ EDİLƏ BİLƏCƏK BİR MƏKAN

Qəbələnin qapısından içəri daxil olan insanlar azərbaycanlıların, udilərin, ləzgilərin, rusların və digər etnosların buradakı yaşam tərzini gördükdə heyrətlənir və hətta qibtə belə edirlər. Belə mühit demokratik dəyərləri ilə öyünən Qərb ölkələrində təsadüf olunmur. Çoxmillətli və fərqli mədəniyyətlərin qovuşduğu Qəbələdə tarixboyu hansısa qarşıdurmalara, narahatçılıq doğuran məqamlara rast gəlinməyib. Bu məkanın milli tərkibinə nəzər salsaq görərik ki, burada yaşayan əhalinin 80 faizə qədərini azərbaycanlılar, digər hissəsini isə ləzgilər, udilər, türklər və başqa millətlər təşkil edir. Müxtəlif xalqların nümayəndələri yaşadıqları üçün burada ümumtəhsil məktəblərinin ibtidai siniflərində ləzgilər və udilər üçün öz ana dillərində dərslər keçirilir.

### TOLERANTLIĞIN KİÇİK MODELİ

Azərbaycanda dini və milli mənsubiyyətinə görə heç kəsə fərq qoyulmur, onların milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə hörmətlə yanaşılır, vahid ailə kimi yaşayırlar.Bu gün Nic qəsəbəsinin tolerantlığın kiçik modeli kimi də qəbul edilməsi də əbəs deyildi. Qəsəbədə üç kilsə, iki məscid, habelə müsəlmanların və xristianların ziyarət etdikləri müqəddəs yerlər var. Onu da bildirək ki, 10 minə yaxın udinin 4 minə yaxını məhz burada, Qəbələnin Nic qəsəbəsində gözəl, rahat bir şəraitdə yaşayır. Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən bərpa olunub.

Bu gün ölkəmizin istənilən bir məkanında azlıq təşkil edən xalqlara dövlətimiz tərəfindən dilini, dinini, adət-ənənələrini, mədəniyyətlərini qoruyub saxlamaq və inkişaf etdirmək üçün hər cür şərait yaradılıb. Və bu Azərbaycanın multikulturalizm modelidir ki, öyrənilir və tədqiq olunur.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Banka bağladığınız halda bunları bilməniz MÜTLƏQ VACİBDİR

"Ümumiyyətlə, banka bağlamağı həm mürəbbələr, həm turşular, həm də kompotlara aid edə bilərik. İlk növbədə təmizliyə fikir verilməlidir. Bankalar, şüşə qablar hansı ki, bağlanılacaq qida məhsullarını saxlayacağınız qablar və qapaqlar ilk öncə sterilizə olunmalıdır. Yəni, tamamilə təmiz olduğundan əmin olmalıyıq. Daha sonra istifadə edəcəyimiz turşular üçün tərəvəzlər, göyərtilər çox təmiz yuyulmalıdır, hər biri dənə-dənə ayrılıb baxılmalıdır ki, içində bəzən həşərat ola bilər ki, bu halda zəhərlənməyə səbəb ola bilər". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti hüseynova deyib.

Onun sözlərinə görə, mütləq şəkildə onların hər biri ayrı-ayrılıqda yuyulub təmizlənməlidir: "Bəzən mürəbbələrdə zəhərlənmə riski ona görə olmur ki, mürəbbələr yüksək şəkərlə birlikdə qaynadılır və bu halda onun tərkibindəki zərərli maddələr öz zərərli xüsusiyyətini itirir. Amma sağlamlıq üçün faydalı olmasına görə mürəbbələri də bişirərkən bütün meyvələr sağlam meyvə olmalı, yəni xarab olmuş olmamalıdır".

Məhsəti Hüseynova sözlərinə belə davam edib: "Əgər cem hazırlanırsa bəzən əzilmiş meyvələrdən istifadə edirlər ki, bu halda da onun tamamilə içinin sağlam olmağına fikir vermək lazımdır. Sadəcə, əzilibsə bişirmək olar. Xarab olmuş meyvələrdən qətiyyən istifadə etmək olmaz. Eynilə də kompot üçün həmin meyvələri bir-bir seçməli və yuma qaydalarına fikir verməlidir. Ən önəmlisi onların hər birinin fərqli saxlanma xüsusiyyəti var. Yaxşı olar ki, ağızları bağlanan-da hava keçirməyən və təzə qapaqlardan istifadə olunsun. Bir çox hallarda təzə qapaq-



lardan istifadə olunmur, təkrar istifadə olunmuş qapaqlardan istifadə olunur ki, bu halda da həmin bağlanılan bankaya hava keçir ki, hava ilə reaksiyaya girdikdə zəhərlənməyə səbəb olur, tərkibi dəyişir. Bütün bunlara diqqət etmək lazımdır. Eyni zamanda da yaxşı olar ki, qaranlıq, sərin, quru yerdə və mütəmadi olaraq nəzarətdə saxlamaq lazımdır. Bəzən olur ki, turşular hava çəkmiş olursa, qapağı ata və bu halda digərlərinə də zərər verə bilər. Bəzən də olur ki, yeni bağladıqları halda qapaq atanda bunu istifadə edirlər ki, yeni bişirilib. Ondan tamamilə imtina etsələr daha yaxşıdır. Çünki qapağın atmasına hava səbəb olur. Bu halda da artıq o məhsul zərərli hesab olunur".

"Ən çox zəhərlənməyə səbəb olan pomidor turşusudur ki, burada da dediyimiz kimi pomidorları xüsusilə dənə-dənə seçmək lazımdır. Çünki, pomidorların tərkibində daha çox zəhərlənməyə səbəb olan maddə var. Bütün meyvə tərəvəz təmiz-təmiz seçilməli, xarab məhsul olmamalıdır. Yaxşı olar ki, heç əzilmiş məhsuldan da istifadə olunmasın və bir-bir yuyulub təmiz sterilizə olunmuş bankada qoyulmalıdır".

***Ayşən Vəli***

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

10 sentyabr

QARABAĞ AZƏRBAYCANDIR!

# Elneni "Qalatasaray"a yox dedi



İstanbulun"Qalatasaray" futbol klubu "Arsenal"ın futbolçusu Məhəmməd Elnenini heyətinə qatmaq üçün kluba rəsmi təklif göndərib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, "Arsenal"ın oyunçuya edilən təklifi rədd etdiyini bildirib. Elneni bu mövsüm "Arsenal"la iki oyuna çıxıb. 29 yaşlı yarımmüdafiəçinin klubla müqaviləsi 2022-ci ilin yayına qədərdir. Elneni 2019-2020 mövsümündə Türkiyənin başqa bir klubu "Beşiktaş"ın uğurları üçün çalışıb.

***Ziya Hikmətoğlu***

# 1000 adamın mesajları oxuduğu iddiası




"Facebook" və "whatsApp sosial media tətbiqlərindəki mesajları oxumaq üçün 1000 adamın çalışdığı iddia edilib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, ABŞ-da yerləşən "ProPublica" media təşkilatının hesabatına görə, bu insanlar dünyanın müxtəlif mərkəzlərində yerləşir. Onların vəzifəsi uyğun olmayan məzmunu aşkar etmək və ABŞ Ədliyyə Nazirliyi ilə bölüşməkdir. Bu insanlar digər istifadəçilərin uyğunsuz olaraq qeyd etdikləri məzmuna xüsusi proqramla daxil olurlar. Bununla birlikdə, uc-uca şifrələmə sisteminə malik olan "whatsApp"-da mesajların göndərənlə mesajı alan şəxs arasında olması zəmanət verilir. Eyni qrupa bağlı hər iki şirkət istifadəçi məlumatlarına çıxış əldə edə bilmədiklərini söyləyib. "Facebook", məhkəmə qərarı ilə istifadəçi məlumatları tələb edildikdə 95% müsbət cavab verir. Məzmunu seçmək üçün şirkətdə 15 min moderator çalışır.

***Ziya Hikmətoğlu***

# Bakcell Azərbaycanın ən sürətli mobil şəbəkəsi elan olundu

Bakcell şəbəkəsi Ookla(r) tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb.* Mobil və genişzolaqlı şəbəkələrin intellektual təhlili, mobil tətbiqetmələrin və texnologiyaların sınaqdan keçirilməsi üzrə dünya lideri olan Ookla(r) ən yüksək mobil şəbəkə sürətini müəyyən etmək üçün özünün Speedtest mobil tətbiqetməsi vasitəsilə Azərbaycanın bütün mobil operatorlarının şəbəkələrini test edib. 68 mindən çox istifadəçinin iştirak etdiyi testin nəticəsinə görə bu ilin birinci və ikinci rübü ərzində Bakcell ən yaxşı nəticələri göstərib. "Bakcell"in mobil şəbəkəsi ən yüksək yükləmə (download) və ötürmə (upload) sürəti nümayiş etdirib.




"Biz bu mükafata layiq görüldüyümüz üçün qürur duyuruq. Bu, abunəçilərimizi ən üstün mobil şəbəkə və ən yüksək keyfiyyətli müştəri təcrübəsi ilə təmin etmək üçün göstərdiyimiz səylərə müstəqil təşkilatdan verilən yüksək qiymətdir. Abunəçilərin mobil şəbəkəyə daha çox ehtiyac duyduğu çətin pandemiya dövründə bu mükafatın əhəmiyyəti daha da artır. Bu müddət ərzində biz Bakcell abunəçilərinə kommunikasiya, iş və əyləncə üçün daha geniş imkanlar açmaq üçün əlimizdən gələni etdik. Fəaliyyətimizin uğurlu nəticəsi olan bu mükafat bizə abunəçilərimizin mobil rabitə xidmətlərinə olan tələblərini tam həcmdə ödəmək naminə daha çox işləmək üçün əlavə motivasiya verir", deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib.

Qeyd edək ki, 2018-2019-cu illərdə Ookla şirkəti Bakcell şəbəkəsini 3 dəfə ardıcıl olaraq "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görüb. Bu gün Bakcell şəbəkəsi 8700-dən çox baza stansiya sayəsində Azərbaycan əhalisinin 99.9%-ni, ölkə ərazisinin isə 91.7%-ni əhatə edir.

"Ookla tərəfindən təqdim olunan "Speedtest mükafatı" yalnız bazarda ən üstün internet göstəriciləri və əhatə dairəsinə malik olan mobil operatorlara verilir. Biz "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" mükafatını Bakcell şirkətinə böyük məmnuniyyətlə təqdim edirik. Bu mükafat şirkətin 2021-ci ilin I və II rübləri ərzində göstərdiyi müstəsna nəticələrin təsdiqidir. Bu yüksək nəticələr abunəçilər tərəfindən Speedtest proqramı vasitəsilə edilən sınaqların ciddi şəkildə təhlili nəticəsində əldə olunub", deyə Ookla şirkətinin baş icraçı direktoru Doug Suttles bildirib.

Ətraflı məlumat burada: https://www.speedtest.net/awards/azerbaijan/2021/?award_type=carrier&time_period=q1-q2

Ookla(r) mobil və genişzolaqlı şəbəkələrin intellektual təhlili, mobil tətbiqetmələrin və texnologiyaların sınaqdan keçirilməsi üzrə dünya lideridir. "Ookla"nın aparıcı şəbəkə sınaqları platforması olan Speedtest(r) proqramı hər gün bütün dünyanın şəbəkələrin fəaliyyəti və keyfiyyətinə dair milyonlarla ölçmələrin nəticələrini emal edir.

* "Ookla"nın 2021-ci ilin 1-ci və 2-ci rübləri üzrə Speedtest Intelligence(r) məlumatlarının təhlilinə əsasən, Ookla ticarət nişanları lisenziya və müvafiq icazə əsasında istifadə olunur.

# Havada min cür zəhər var

QİDA TEXNOLOQU AÇIQLADI

"Uşaqlara sağlam atışdırmalıqlar hazırlamaq məqsədi ilə onlar üçün peçenyələr düzəltmək olar. Onlara tam buğda unu ilə çovdar ununun qarışığından peçenyələr hazırlamaq faydalıdır". Bu sözləri SİA-ya açıqlamasında qida texnoloqu Ağa Salamov deyib. Onun sözlərinə görə, uşaqlara peçenyə şəklində krekerlər düzəltmək olar: "Krekerlərin içərisinə isə təmiz şokolad çəkmək onu dadlandırır. Yəni, hər şey tam sağlam şəkildə olmalıdır. Həmçinin, meyvələrdən təbii salatlar da hazırlana bilər".



Ağa Salamov sözlərinə belə davam edib: "Təbii kremlərlə, evdə, baldan hazırlanmış şirin souslarla uşaqlara müxtəlif şirniyyatlar təqdim etmək olar. Düzdür, bu pediatr məsləhəti ilə olmalıdır. Çünki uşaq var ki, ona çox şirin vermək olmaz. Onu pediatra məsləhət etdikdən sonra onlara bu atışdırmalıqlar düzəltmək olar".

"Bir də səhər yeməyində uşaqlara lavaşın arasında dürməklər düzəltmək yaxşıdır. Çovdar unu ilə tam buğda ununun qarışığından hazırlanmış lavaşların arasına pendir, yağ, bal, qaymaq sürtmək olar. Uşaqlar bu dəqiqə risk qrupuna daxildir. Ona görə təbii, orqanik qidalanmalıdırlar. Baxmayaraq ki, artıq 4-cü sənayedə orqanik heç nə yoxdur, iqlim pozulub, havada min cür zəhər var, torpaqlar zəhərlənib, amma yenə də orqanik qidalanmağa məcburuq".

***Ayşən Vəli***

# "Mən heç kimə qoşulmuram"



Məşhur müğənni Funda Arar "Snob Magazine" -in qonağı olub. SİA xarici mətbuata istinadən xəbər verir ki, popçu açıqlama verib.

"Heç vaxt polemika ilə gündəmdə olmamışam. Mən spekulyasiya qadınına çevrilməmişəm, heç kimlə mübahisə etməmişəm. Gündəmdə qalmaq üçün xüsusi səy göstərmədim. Günü xilas etmək üçün bir addım atmaq mənim üçün deyil. Uzunmüddətli işlərə imza atdım və xəttimi pozmadım" - deyə müğənni bildirib.

***Ayşən Vəli***

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**